
Rencana

Kemenangan Azerbaijan, kemenangan Islam

**Malayziyalı jurnalist:**
**Azərbaycanın təkcə hərbi uğurunun sirləri deyil, humanizm öhdəliklərinə sadiqliyi də öyrənilməlidir**

2



# Səs

№ 206 (6406) 12 noyabr 2021-ci il. Qiymətı 40 qəpik

# Prezident İlham Əliyev Türkiyədə səfərdədir



Prezident İlham Əliyev noyabrın 11-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə iştirak etmək üçün Türkiyə Respublikasına səfərə gedib.



# Kremlin məqsədi nədir?

**Yaxud, oyuncaq İrəvan Bakıya "təzyiq" vasitəsi ola bilərmi?**

14

## Rus ekspert:

**"Qarabağdakı erməni quldur dəstələri xərçəng şişidir, onu çıxarmaq lazımdır..."**

15



# 12 Noyabr

## Konstitusiya Günüdür

TƏHLİL




5

**Bu gün müasir Azərbaycan tarixinin ən fəxarətli günlərini yaşayırıq. Azərbaycanın siyasi arenada, döyüş meydanında misilsiz uğura imza ataraq tarixi ədaləti bərpa etməsi tariximizə Zəfər Gününü yazdırdı. Bütün dünyaya 44 gün...**

## Model qısa boyu və əyriliyinə görə rədd edilib



**ABŞ-lı model Heyli Biber "Viktoria's Sekret" alt paltarı brendinin yeni üzü olub. SİA xarici mətbuata istinadən xəbər verir ki, bir neçə il əvvələ qədər o, brendin yeni üz skrininqlərindən keçə bilməyib. Qısa boyu və əyriliyinə görə...**

16




# 1-ci qrup əlil şəxsin yardıma ehtiyacı var

# 2022-ci ilin Dövlət Büdcəsində hansı yeniliklər olacaq?

12



"2022-ci ilin büdcəsi Azərbaycanın müstəqillik dövründə xərclərin məbləği baxımından ən böyük...



**Zəfər amnistiya dövlətin növbəti humanist siyasətinin təzahürüdür**

6

**Azərbaycan müstəqillik qazandıqdan sonra Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi inkişaf strategiyasını uğurla davam...**



**"Üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiyası olmaqla yanaşı, həm də uydurma erməni ideyalarını alt-üst etdi"**

4

**Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiyası olmaqla yanaşı, həm də uydurma erməni...**

# “BP şirkəti Azərbaycanla dünyada ən güclü tərəfdaşlıq əlaqələrinə malikdir”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, BP qrupunun baş icraçı direktoru Bernard Luni son görüşdən keçən dövr ərzində Azərbaycanın əldə etdiyi uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi ilə bağlı əldə edilmiş birgə uğurlar münasibətilə Bernard Lunini təbrik etdi və bu layihənin Azərbaycanla BP şirkətinin birgə səyləri nəticəsində əldə olunduğunu bir daha vurğuladı.

Bildirildi ki, BP şirkəti Azərbaycanla, o cümlədən SOCAR şirkəti ilə dünyada ən güclü tərəfdaşlıq əlaqələrinə malikdir. Öz növbəsində Azərbaycanın da ən möhkəm tərəfdaşlığı BP şirkəti ilədir. Qeyd edildi ki, ölkəmizin bu şirkətlə qarşılıqlı inama əsaslanan əməkdaşlığının zəngin tarixi və parlaq gələcəyi var.

Söhbət zamanı BP şirkətinin bərpa olunan enerjiyə göstərdiyi marağın Azərbaycanın enerji strategiyasına uyğun gəldiyi qeyd edildi, bu sahədə BP ilə əməkdaşlığın genişlənməsi məsələlərinin nəzərdən keçirildiyi bildirildi. BP şirkətinin işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji ilə bağlı planlarının əhəmiyyətinə toxunularaq bunun həmin ərazilərdə ölkəmizin bəyan etdiyi kimi, yaşıl enerji ərazisinə transformasiya etmək işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu. Qeyd edildi ki, bu işlər böyük potensiala malikdir, xüsusilə nəzərə alınsa ki, Azərbaycan qonşu ölkələrlə şaxələndirilmiş enerji bağlantılarına malikdir və ölkəmizdə tələbatdan artıq enerji istehsal olunur.

Bernard Luni xalqımızın ümummilli lideri Heydər Əliyevin



## Prezident İlham Əliyev
### BP qrupunun baş icraçı direktorunu qəbul edib

Azərbaycanın faydası naminə karbohidrogen ehtiyatlarının inkişafı ilə bağlı təşəbbüslərini xatırladaraq, hazırda Prezident İlham Əliyevin enerji keçidi məsələsi ilə bağlı baxışlarına görə təbriklərini çatdırdı.

BP qrupunun baş icraçı direktoru Bernard Luni Azərbaycanın ətraf mühitin mühafizəsi sahəsində səylərini yüksək qiymətləndirərək ölkəmizin bu istiqamətdə dünyanın aparıcı dövlətləri sırasında olduğunu dedi və bildirdi ki, Azərbaycanda ətraf mühitin standart və qaydalarının qorunması bir çox inkişaf etmiş ölkələrdən daha güclüdür. Öz növbəsində, Prezident İlham Əliyev Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən danışdı. Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

**Malayziyanın aparıcı nəşrlərindən olan ”Utusan Malaysia” qəzeti tanınmış jurnalist Taqib Şakerin Azərbaycan xalqının şanlı 8 Noyabr - Zəfər Günü ilə əlaqədar məqaləsini dərc edib.**

AZƏRTAC xəbər verir ki, müəllif Malayziyanın da daxil olduğu geniş dünya ictimaiyyətinin, o cümlədən BMT-nin 30 ilə yaxın davam edən etirazlarına baxmayaraq, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığını, 2020-ci ildə Azərbaycanın 44 günlük müharibə nəticəsində öz torpaqlarını işğaldan azad etdiyini xatırladıb. Vətən müharibəsindən əvvəlki dövrdə Ermənistanın özünü düzgün aparmadığını, dünya ictimaiyyətinin çoxsaylı çağırışlarına kobud şəkildə və nümayişkaranə şəkildə məhəl qoymadığını, bir çox beynəlxalq kütləvi-informasiya vasitələrinin buna laqeyd yanaşdığını vurğulayıb.

Müəllif məqalədə yazıb: ”2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən müharibə Ermənistana yaxşı dərs oldu. Bu müharibə Ermənistana xatırlatdı ki, Azərbaycan artıq heç bir işğala dözmək fikrində deyil”.

Malayziyalı jurnalist qeyd edib ki, bu Qələbədə ən vacib amil daim öz ölkəsini qoruyan və onu hər bir şəraitdə müdafiə edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rolu ilə bağlıdır. Belə ki, Qələbənin əldə olunmasında məhz Azərbaycan Prezidentinin müharibə ilə bağlı dərindən düşünülmüş strategiyası öz bəhrəsini verdi.



UTUSAN MALAYSIA JUMAAT • 5 NOVEMBER 2021 | 19

Rencana

THAQIB SHAKER

Kemenangan Azerbaijan, kemenangan Islam

UMAT Islam adalah satu, tidak kira siapa dan di mana mereka berada. Oleh itu, rakyat Malaysia seharusnya lebih peka dengan segala isu berkaitan umat Islam di seluruh dunia tanpa bersikap memilih dan dwistandard.

Tahukah anda, Isnin ini merupakan hari kemenangan umat Islam sedunia? Mengapa saya katakan sedemikian?

Ini kerana pada 8 November 2020, Azerbaijan berjaya membebaskan sebahagian tanah air mereka daripada penjajah Armenia dalam peperangan Nagorno-Karabakh yang berlangsung selama 44 hari.

Armenia menakluki

“Tidak dilupakan segala doa dan sokongan umat Islam di seluruh dunia termasuk Malaysia.”

peperangan.

Ini menunjukkan Azerbaijan tidak pernah mengabaikan kewajipan kemanusiaan ketika

# Malayziyalı jurnalist:
## Azərbaycanın təkcə hərbi uğurunun sirləri deyil, humanizm öhdəliklərinə sadiqliyi də öyrənilməlidir

Yazıda müəllif Vətən müharibəsi zamanı dünya müsəlmanlarının, o cümlədən malayziyalı müsəlmanların Azərbaycanı dəstəklədiyini, onun qalib gəlməsi üçün dualar etdiyini də xatırladıb.

Məqalədə Azərbaycanın hərbi şücaəti ilə yanaşı, onun mənəvi üstünlüyünü göstərən xüsusi bir məqama da diqqət yetirilib: ”Azərbaycan torpaqlarının işğaldan azad edilməsində tətbiq olunan hərbi strategiya və əməliyyatlar bu gün dünyanın aparıcı hərbi institutlarında və məktəblərində öyrənilir. Azərbaycanın bu müharibədə tətbiq etdiyi peşəkar hərbi planlama və innovativ texnologiyalar beynəlxalq ictimaiyyətin diqqətini ciddi şəkildə özünə cəlb edib. Lakin bu, Azərbaycanın uğurunun yalnız bir cəhətidir. Belə ki, müharibə dövründə Azərbaycan Ordusunun mülki vətəndaşları hədəfə almaması digər vacib cəhətdir. Prezident İlham Əliyev bütün müharibə boyunca hərbi rəhbərliyə birmənalı şəkildə tapşırmışdı ki, qəti surətdə mülki vətəndaşları hədəfə almaq olmaz. Bu isə Azərbaycanın müharibə dövründə humanitar öhdəliklərə necə sadiq qaldığını göstərir. Baxmayaraq ki, həmin ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində mülki yaşayış məntəqələrini dağıtmış, hətta müsəlmanlar üçün müqəddəs olan məscidləri donuz və ya inək tövləsinə çevirmişdilər”.

T.Şaker məqalədə Malayziyanın ötən müddət ərzində Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyin Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılandığını da qeyd edib. O, işğaldan azad edilmiş ərazilərdə hazırda aparılan geniş bərpa və quruculuq işlərindən də yazıb.

Məlumat üçün qeyd edək ki, 1939-cu ildən nəşr olunan ”Utusan Malaysia” Malayziyanın ilk malaydilli qəzeti olmaqla yanaşı, ən yüksək tirajla dərc edilən gündəlik nəşrdir.

**10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanat. Artıq ötən ilin 10 noyabr tarixində imzalanmış Üçtərəfli Bəyanatın birinci ildönümüdür. Belə bir deyim var: "Haqq yolunda addımlayanın köməyi çox, düşməni yox olar". Bu, həqiqətən də belədir. Və bu gün 10 noyabr tarixi sənədi imzalamaqla 30 il Qələbə həsrətinə son qoyuldu - Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı!**

# İlham Əliyev:

# "Mən isə böyük fəxarət və sevinc hissi ilə bu Bəyanata öz imzamı atmışam!"









## Ayağı sayalı Şuşa...

Şuşanın ayağı sayalı oldu. 8 noyabrda Şuşamızın azad olması müjdəsini verən Prezident, Ali Baş Komandanımız İlham Əliyev Şuşanın azad olunduğunu və üçrəngli Dövlət Bayrağımızın dalğalandığını dedi. 9 noyabr qürurumuz, məsləyimiz, mənliyimiz olan Bayraq Günü zamanı 71 kəndlərin, 1 qəsəbə və 8 yüksəkliyin azad olması, 10 noyabrda isə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşdə yenə də Ermənistanın baş nazirinin iştirak etməməsi bir daha terrorçu dövlətin xislətinin sübutudur. Lakin buna baxmayaraq, 3 ölkənin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Bəyanatı şanlı qələbəmizdir. Bunu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də söyləyib: "Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur".

## Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır

Noyabrın 10-da Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin üçtərəfli bəyanatını imzaladılar. Ancaq yenə də eyni oyun, eyni riyakarlıq. İşğalçı Ermənistan bu bəyanata qol çəkməkdən imtina edib. Sözsüz ki, gücsüz, rəzil Paşinyan kimi mənəviyyatsız, terrorçu güclü, dünya dövlətlərinin qəbul etdikləri İlham Əliyev kimi diplomatik Lider qarşısında rəzil və faşist xislətli Paşinyan kimilərin siçan deşiyinə girməsi təəccüblü də deyil. Məhz Ali Baş Komandanın diplomatik siyasətinin, Müzəffər Ordumuzun və Rəşadətli əsgər və zabitlərimizin gücü, şücaəti qarşısında sınmalıdır. Və sentyabrın 27-dən etibarən ilk gündən 44 gün ərzində zəfər yürüşünə başlayan Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Xalq-Ali Baş Komandan birliyi Ordumuzun zəfər yürüşünün əsasını təşkil etdi.

Xalq-Ali Baş Komandan, xalq-ordu birliyi üzərində qurulan zəfər yürüşü ilə Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasının bir qismini də uğurla icra etdi. Ümumilikdə, hərbi kampaniya dövründə 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Və noyabrın 10-da imzalanan bəyanat Dağlıq Qarabağ münaqişəsinin tarixi qələbəsini elan etdi! Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə, Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi. Bu Bəyanat uzun illər davam edən işğala son qoydu. Həmçinin, Bəyanatın imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı. Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı. Dördüncüsü, 44 günlük müharibə Azərbaycanın tam qələbəsi ilə nəticələndi.

Bu Bəyanatın imzalanması ümumxalq birliyinin bariz nümunəsidir. Ölkəmizin bütün bölgələrində hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib və uğurlarımıza seviniblər. Həmrəylik bizim ən böyük sərvətimiz və dəyərimizdir.

10 noyabrda imazalanmış Bəyanat status-kvonu dəyişdi və Azərbaycanın maraqlarına uyğun bir şəkildə hazırlanmışdır. Ali Baş Komandan İlham Əliyevin israrlı mövqeyi nəticəsində məğlub və çıxılmaz vəziyyətə düşən Ermənistan rəhbərliyi işğal edilmiş bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxmaq və bunun üçün çıxış qrafikini təqdim etməyə məcbur olmuşdur. "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı ərazi yoxdur. Qarabağın bütün rayonları digər rayonlarımız kimi Azərbaycanın tərkibində olan ayrılmaz ərazimizdir. Laçın dəhlizində təhlükəsizliyin təminatı Azərbaycanın səlahiyyətindədir. Ordumuzun döyüş meydanında qazandığı qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Belə ki, Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail olub. Bu Bəyanat eyni zamanda Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsini rəsmiləşdirdi. Bəyanat Azərbaycanın Ermənistan üzərində şərtsiz hərbi üstünlüyünü təsdiq etdi. 44 günlük müharibə müddətində qardaş Türkiyə açıq dəstəyi bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Türkiyədən gələn dəstək və həmrəylik nümayişi Azərbaycan xalqını Qələbəyə ruhlandırdı. Üçtərəfli Bəyanatda göstərilən bəndlərin icrası məcburi köçkünlərin geri qayıtması ilə demoqrafik balans tamamilə Azərbaycanın xeyrinə dəyişəcəyi deməkdir.

Bir sözlə, alternativi olmayan 10 noyabr üçtərəfli Bəyanat erməni miflərinə son qoyuldu, "Böyük Ermənistan" planı fiaskoya uğradı. Qələbə həm də azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaq. Bu, belə də oldu.

Ali Baş Komandan, Prezident İlham Əliyevin dediyi kimi: "Bu bəyanat bizim şanlı qələbəmizdir!... Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

**RƏFİQƏ KAMALQIZI**





# “Azərbaycan BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrasını özü təmin etdi”

**“Bildiyiniz kimi, 2019-cu ilin oktyabrın 15-də Türk Şurasının Bakıda keçirilən VII Zirvə Görüşündə Azərbaycan təşkilata sədrliyi öz üzərinə götürüb. Azərbaycanın sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, təşkilat tam gücü ilə fəaliyyətini davam etdirib, həm üzv ölkələri arasında əməkdaşlıq daha da inkişaf edib, həm də təşkilatın beynəlxalq müstəvidə rolu artıb. Bu xüsusda, üzv dövlətlərlə əməkdaşlıq çərçivəsində başda baş katib Bağdat Amreyev olmaqla, Türk Şurası Katibliyinin heyətinin fəaliyyətini təqdir edirik.”**



Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Xarici İşlər Nazirlərinin VIII Zirvə Toplantısında çıxışı zamanı bildirib.

Hazırda Türk Şurasının inkişaf dövrünü yaşadığını bildirən nazir bu gün və sabah dövlətlərimiz tərəfindən qəbul ediləcək önəmli sənədlərin bunun bariz göstəricisi olduğunu ifadə edib: ”2020-ci il aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə Zirvə Görüşü keçirilib. Bu görüş beynəlxalq təşkilatlar çərçivəsində COVID-19 pandemiyasına həsr olunmuş ilk tədbir olub. Zirvə Görüşünün nəticəsi olaraq ölkələrimiz arasında pandemiya və sonrakı dövr ərzində əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı prezidentlərin təlimatlarına uyğun olaraq, iqtisadiyyat, nəqliyyat, səhiyyə, energetika, gömrük və miqrasiya sahələrindən məsul nazirlərin görüşləri keçirilib, qarşıya qoyulan hədəflər müzakirə olunub. Təqdirəlayiq haldır ki, sədrliyimiz dövründə səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, prokurorluq, ədliyyə və humanitar sahədə nazirlər və qurum rəhbərləri səviyyəsində yeni əməkdaşlıq mexanizmləri qurulub.

Bununla yanaşı, cari il martın 31-də videokonfrans vasitəsilə Türk Şurasının qeyri-rəsmi Zirvə Görüşü baş tutub. Eyni zamanda, ötən il fevralın 6-da Bakı şəhərində Türk Şurasına üzv ölkələrin xarici işlər nazirlərinin növbədənkənar iclası, həmçinin 2021-ci il sentyabrın 27-də İstanbul şəhərində ”Əfqanıstandakı vəziyyət və son inkişaflar işığında onun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlərinə təsiri” mövzusunda Türk Şurasına üzv ölkələrin xarici işlər nazirlərinin fövqəladə iclası keçirilib. Belə ki, məmnunluqla vurğulamaq istərdim ki, Azərbaycanın sədrliyi dövründə aidiyyəti nazirlərin mütəmadi toplantıları ilə yanaşı, dövlət başçıları, eləcə də xarici işlər nazirləri səviyyəsində iclaslar keçirilib.

2018-ci ildə Macarıstanın təşkilatda müşahidəçi statusu alması ilə Türk Şurası Avropaya doğru açılıb. Sevindirici haldır ki, Macarıstan ilk günlərdən təşkilatda çox fəal olub və bunun sübutudur ki, 2019-cu ildə Macarıstanın təşəbbüsü ilə Budapeştdə Türk Şurası ilə Avropa təsisatları arasında əməkdaşlığı hədəfləyən və önəm kəsb edən Türk Şurası nümayəndəliyinin ofisi fəaliyyətə başlayıb”.

Türk Şurası ilə əlaqəli fəaliyyət göstərən TÜRKPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətlərinə xüsusi önəm verildiyini bildirən nazir deyib: ”Eyni zamanda, sözügedən təşkilatlar arasında əlaqələndirmə vacibdir, bu xüsusda Bakıda keçirilən sonuncu Zirvə Görüşü zamanı yaradılan koordinasiya şurasının işi daha da aktivləşməlidir”.

Sədrliyimiz dövründə Azərbaycan üçün olduğu qədər bütün Türk dünyası üçün böyük önəm kəsb edən 44 günlük Vətən müharibəsi və bunun regionda yaratdığı yeni geosiyasi reallıqlar barədə məlumat verən nazir deyib: ”Bildiyiniz kimi, ötən əsrin 80-ci illərinin sonunda Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları, təxribatları, terror əməlləri ilə başlamış münaqişə Azərbaycana qarşı hərbi təcavüz ilə nəticələnmişdir. Otuz ilə yaxın müddət ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin 20 faizi işğal altına düşmüş, bir milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin salınıb, taleyi bu günə qədər bəlli olmayan 4000-ə yaxın soydaşımız itkin düşübdür.

Ötən il sentyabrın 27-də təcavüzkar Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, təmas xəttində olan kəndləri və digər mülki infrastruktur obyektlərini atəşə tutmaqla növbəti genişmiqyaslı hərbi təxribata əl atmışdır. Ermənistanın hərbi təcavüzünü dəf etmək, mülki şəxslərin və yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək əks-hücum əməliyyatlarına başlayıb. 44 gün davam edən əməliyyat nəticəsində Ermənistan məğlub olaraq kapitulyasiya aktını imzaladı, bununla da münaqişə sona çatdı. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrasını özü təmin etdi.

Təqribən son 30 il ərzində Ermənistan tərəfindən işğal altında olmuş Azərbaycan ərazilərində urbisid, kultursid və ekosid cinayətləri törədilib, bütün mədəni və dini abidələr viran qoyulub, 9 şəhər və yüzlərlə kənd yer üzündən silinib”.

Türkiyənin ölkəmizə dəstəyindən danışa Ceyhun Bayramov bildirib ki, müharibənin ilk saatlarından qardaş Türkiyə Azərbaycana dəstək verib. 44 gün ərzində Türkiyənin ən yüksək səviyyədə ölkəmizə verdiyi siyasi və mənəvi dəstəyi şanlı Qələbənin əldə edilməsində əvəzsiz rol oynayıb. ”Bu müddət ərzində qardaşım Mövlud Çavuşoğlu beş dəfə Azərbaycana səfər edib. Fürsətdən istifadə edərək, xarici işlər nazirinin simasında qardaş Türkiyəyə təşəkkürümü bildirirəm. Türk Şurası 44 günlük müharibə dövründə Azərbaycana dəstək olan bir sıra açıqlamalar verib. Həm Türk Şurasına, həm də bizə dəstək olan bütün dost ölkələrə buna görə təşəkkürümüzü bildiririk”, - deyə Azərbaycanın xarici işlər naziri əlavə edib.

## “Zəngəzur dəhlizinin açılması region dövlətlərinin iqtisadiyyatına və bölgədə sülhün təmin olunmasına müsbət təsir göstərəcək”

Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupu olaraq Zəfər Gününün birinci ildönümündə qardaş Azərbaycanda olmaqdan məmnunuq. Bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım jurnalistlərə açıqlamasında deyib. O diqqətə çatdırıb ki, Qarabağda ”ağıllı şəhərlər”, ”ağıllı kəndlər” yaradılır. Hər iki ölkə insanların tezliklə öz dədə-baba yurdlarına qayıtması üçün birlikdə çalışır: ”Təbii ki, region ölkələrinin mehriban şəraitdə yaşaması üçün sülh ən önəmli faktordur. Zəngəzur dəhlizinin açılması region dövlətlərinin iqtisadiyyatına, qonşuluq münasibətlərinə və bölgədə sülhün təmin olunmasına müsbət təsir göstərəcək”.



Şuşa Bəyannaməsinin Türkiyə-Azərbaycan müttəfiqliyini daha da gücləndirdiyini söyləyən dostluq qrupunun rəhbəri Türkiyə Prezidentinin bu yaxınlarda Azərbaycana səfərinin də tarixi əhəmiyyət daşıdığını söyləyərək deyib: ”Dövlət başçılarımız Füzuli Hava Limanının açılışında və digər önəmli mərasimlərdə dünyaya önəmli mesajlar verdilər”.

Qarabağ torpaqlarında minatəmizləmə işlərinin getdiyini söyləyən Şamil Ayrım qeyd edib ki, minaların təmizlənməsi işində də Türkiyə qardaş Azərbaycana dəstək göstərir. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı işlər gedir. Türkiyə-Azərbaycan dostluq qrupunun rəhbəri bu səfərin qardaş ölkələrin parlamentləri arasında əlaqələrin güclənməsinə də kömək edəcəyini vurğulayıb. O, Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşdüklərini və bir sıra məsələlərlə bağlı faydalı müzakirələr apardıqlarını diqqətə çatdırıb.

## "The National" xəbər portalı: Azərbaycan Ermənistanla altı həftəlik döyüşdə qazandığı Qələbənin birinci ildönümünü qeyd edir

Birləşmiş Krallığın məşhur ”The National” xəbər portalında ”Azərbaycan Ermənistanla altı həftəlik döyüşdə qazandığı Qələbənin birinci ildönümünü qeyd edir” başlıqlı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Qələbənin 1 illiyi münasibətilə paytaxt Bakıda yürüş keçirildiyi qeyd edilib. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları 440 metr uzunluğunda nəhəng Azərbaycan bayrağını yürüş marşrutu üzrə aparıblar.

Məqalədə qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev strateji əhəmiyyətə malik Şuşa şəhərinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunması münasibətilə noyabrın 8-ni Qələbə Günü elan edib. Şəhərin azad olunması Ermənistanı iki gün sonra Rusiyanın vasitəçiliyi ilə müqaviləni qəbul etməyə məcbur edib. Məqalədə Prezident İlham Əliyevin ”Biz qalib ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Ermənistanda hər hansı bir qüvvə bizə laqeyd baxsa və ya revanşist meyillərə əl atsa, yumruğumuzu görəcək” sözləri qeyd olunur.



## “Üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiyası olmaqla yanaşı, həm də uydurma erməni ideyalarını alt-üst etdi”

Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiyası olmaqla yanaşı, həm də uydurma erməni ideyalarını alt-üst etdi. Tarixə nəzər salsaq görərik ki, Paris Sülh Konfransında həm Osmanlı ərazisində yaşayan ermənilərin sözçüləri, həm də Ermənistan təmsilçiləri ayrıca çıxış edərək əslində vahid bir xətti orada qəbul etdirməyə çalışmışdılar. Onlar həm uydurma ”erməni soyqırımı” məsələsini, həm Türkiyə ərazisində ermənilərə torpaq verilməsi məsələsini, həm də Ermənistan respublikasının tanınması məsələsini ortaya qoymuşdular. Bu paralelliyə də əslində Qərb dövlətləri imkan yaratmışlar ki, hansı cinahdan olur-olsun erməni məsələsini dünya gündəmində türklər əleyhinə çevrilən bir məsələ kimi aktual mövzu olaraq qorusunlar.

Bu fikirlər AZƏRTAC-a açıqlamasında Böyük Qurtuluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa deyib.

İtkisiz qaytarılan ərazilərin əhəmiyyətini qeyd edən deputat bildirib ki, üçtərəfli Bəyanat, əslində, Azərbaycanın hərbi və diplomatik Qələbəsi idi. Azərbaycan Ağdam, Kəlbəcər və Laçının boşaldılması istiqamətində diplomatik uğur qazanaraq hərbi qüvvələrini qoruyaraq itkilərdən yayınmış oldu. Bununla Azərbaycan həm Murov, həm Ermənistanla sərhəddə olan ən strateji nöqtələri Kəlbəcər istiqamətindən götürdü, eyni zamanda, Qarabağı nəzarət altında saxlayan Ağdam bölgəsinin əsas məntəqələrini bütövlükdə ələ keçirməklə bu ərazidə yenidən məskunlaşma imkanı qazandı.

Üçtərəfli Bəyanat həm də ermənilərin illərdir uydurduqları siyasi ideyalarını çökdürdü. Çünki ”böyük Ermənistan”, qondarma ”Dağlıq Qarabağ respublikası” və başqa anlayışlar gündəmdən çıxmağa başladı. Mahiyyətcə bu Bəyanat Azərbaycanın ərazi bütövlüyünün tanınması haqqında ciddi bir sənəddir. Bu, həm də Zəngəzur koridorunun açılmasına ciddi bir imkanın tanınması demək idi. Çünki həmin sənəddə Azərbaycan və Ermənistan cənub və şimal sərhədləri istiqamətində bütün kommunikasiya xətlərinin açılmasını nəzərdə tutur. Bəyanatda bundan əlavə həm dəmiryolu, həm də avtomobil yolunun açılması nəzərdə tutulurdu. Bunun da yeganə həlli cənubdan Zəngəzur dəhlizindən, şimaldan isə Qazax üzərindən belə bir yolun salınması müəyyən mənada gerçəkləşə bilər. Zəngəzur koridorunun açılması artıq bu gün Azərbaycanın strateji bir siyasi hədəfinə çevrilib.

# Amnistiya Aktının icrasına

## PAYTAXT SAKİNLƏRİNİN BAXIŞI -




**Azərbaycan tarixinin indiyə qədər ən böyük Amnistiya Aktına yaxın günlərdə imza atılıb. Bu Amnistiya Aktı 15 min məhkumu əhatə edəcək. Bu aktın imzalanması özlüyündə dövlətin xalqa olan qayğısının bir başqa nümunəsidir. Bəs, atılan bu böyük humanist addım barədə paytaxt sakinləri nə düşünür? SİA məsələ ilə əlaqədar olaraq paytaxt sakinləri arasında keçirdiyi sorğunu təqdim edir:**



**Paytaxt sakini Ramiz Əsədov:** "Bu qərar çox xoş bir qərardır. Mən həmişə istəmişəm ki, insanlar məhkum olmasınlar. Azad və firavan yaşasınlar. Xəta edib cinayət işlədənlər gərək, bundan sonra düşünsünlər ki, heç nəyə görə özünü azadlıqdan məhrum etməyə dəyməz".



**Paytaxt sakini Musa Kazımov:** "Çox gözəl qərardı. Neçə gözüyaşlı ana bundan sonra, bəlkə də, sevinc gözyaşı tökəcək. Allah bir anlıq nəfsinə uduzan məhkumların qapılarını açsın! Və bir daha yolları həbsxanaya düşməsin".



**Paytaxt sakini Ziyatxan Camalov:** "Çox gözəl qərardır. Allah Prezidentimizin canını sağ etsin. 16 min məhkumun hamısı azadlığa çıxarıldıqları üçün cənab Prezidentə minnətdar olacaqlar. Allah ondan razı olsun".



**Paytaxt sakini Fərid Qasımlı:** "Əfv olunacaq məhkumlar yəqin ki, peşmandırlar. Məhkumdan məkuma da fərq var. Adam var qeyrət üstündə tutulub. Adam da var ki, narkotik üstündə tutulub. Kiminsə balasını zəhərləyib. Bələlərinin azad olunmasına razı deyiləm. Narkotikə yox deyirəm. Amma kimsə başqa bir əməl üstündə bir anlıq şeytana uyubsa, onların peşman olduqlarını düşünürəm. Bu baxımdan bu qərarı müsbət hesab edirəm".



**Paytaxt sakini Aidə Mirzəyeva:** "Yaxşı məhkumları azadlığa buraxsınlar. Onların əvəzinə narkomanları, narko-tacirləri içəri aparsınlar. Bezmişik narkomanların əlindən. O ki qaldı bir anlıq qəflət ucbatından içəriyə düşənlərə, onların islah olacaqlarına inamım var".



**Paytaxt sakini Rufan Həmidov:** "Baxır nəyin üstündə tutulan məhkumlar azadlığa buraxılacaq. Əgər qadına qarşı şiddət törədibsə, bu adam onun bir günü də qalsa, buraxmasınlar. Amma hər hansı bir oğruluq və ya xırda bir şey üstündə bir adam həbs olunubsa, onun azadlığa buraxılmasında bir problem yoxdur".



**Paytaxt sakini Nuridə Sultanova:** "Mən bu barədə düşünürəm ki, dövlət ölçüb-biçib bu qərarı verib. Deməli, bu qərarın bir faydası olacaq. Azadlığa buraxılanlar, yəqin ki, yenidən normal şəkildə cəmiyyətə adaptasiya olacaq".



**Paytaxt sakini Süleyman Ziyəddinov:** "Düşünürəm, bu qərar faydalı olacaq. Azadlığa buraxılacaq məhkumlar öz xətalarından dərs alacaq və bir daha hansısa cinayət əməlinə yaxın durmayacaq".



**Paytaxt sakini Səlimə Rzayeva:** "Düzdür, hansısa cinayət əməlinə görə şəxs qanun qarşısında cavab verməli və cəzasını çəkməlidir. Amma bəzən elə olur ki, çox yaxşı insan bir anlığa gözlənilmədən xəta törədir. Belə insanlara ikinci bir şans vermək mümkündür. Buna görə də, bu qərarın faydalı olacağını düşünürəm".

*Turqay Musayev*

# 12 Noyabr

## Konstitusiya Günüdür

Bu gün müasir Azərbaycan tarixinin ən fəxarətli günlərini yaşayırıq. Azərbaycanın siyasi arenada, döyüş meydanında misilsiz uğura imza ataraq tarixi ədaləti bərpa etməsi tariximizə Zəfər Gününü yazdırdı. Bütün dünyaya 44 gün ərizində Azərbaycanın siyasi və hərbi gücünü gördü. Xalqımız Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşərək, həmrəylik nümayiş etdirdi. 8 noyabr Azərbaycan tarixinə Zəfər Günü kimi yazıldı. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərbi əməliyyatlar nəticəsində müasir standartlara cavab verən rəşadətli Ordumuz 44 gün ərzində 300-ə yaxın yaşayış məntəqəsini, həmçinin 5 şəhər və 4 qəsəbəni, bir sıra strateji yüksəklikləri işğaldan azad etdi. 2020-ci il noyabrın 10-da Azərbaycanın Qələbəsini təsdiqləyən üçtərəfli Bəyanat imzalandı. Azərbaycan xalqı Zəfər tarixini 8 Noyabr Zəfər Gününü qeyd etdi. Bu günlər Azərbaycan xalqı öz tarixi günlərini yaşayır. Bu gün isə zəfər qazanmış Azərbaycan 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu günü ilk milli Konstitusiyamızın qəbul edilməsinin 26-cı ildönümünü qeyd edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

İlk ali Qanunu qəbul etməklə, Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Belə ki, mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə ölkəmiz bir sıra Konvensiyalara qoşuldu, dövlətin hüquqi sisteminin demokratik dünya standartlarına uyğunlaşdırılması davam etdi. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizin tərəqqisinə, inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsi və demokratik inkişaf prosesinə töhfələr verir. Prezident İlham Əliyevin ötən 18 ildə Azərbaycana rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində uğurlar əldə edilib, ardıcıl olaraq sosial-iqtisadi islahatlar həyata keçirilib. Cəmiyyətin




inkişafı, yeni ictimai-siyasi münasibətlərin meydana çıxması konstitusiyada islahatların aparılmasını zəruri etdiyindən, 2016-cı ildə növbəti dəfə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi keçirildi. Konstitusiya islahatları cəmiyyətin sosial sifarişi olaraq ciddi bir zərurət kimi meydana çıxdı.

Silahlı Qüvvələrlə bağlı edilən dəyişikliklər də təqdirəlayiqdir. Belə ki, Ali Baş Komandan statusu yalnız ordu, Silahlı Qüvvələr üzərində idisə, artıq konstitusiyaya edilən dəyişikliklərə əsasən, bütün silahlı birləşmələr Ali Baş Komandanın əmrinə tabedir. Digər mühüm və vacib məqamlardan biri isə prezidentlik müddətinin 5 ildən 7 ilə artırılmasıdır. Dünyanın bütün demokratik dövlətlərində vitse-prezidentlik institutu var. Dünya təcrübəsində olan bu demokratik ənənənin Azərbaycan Konstitusiyasında da əks olunması müsbət haldır. Bütün bunlar çevik və səmərəli siyasət aparmağa, ölkənin siyasi nüfuzunu və iqtisadi-hərbi qüdrətini daim artırmağa, iqtisadi və siyasi səhnədə olduğu kimi, idarəetmədə də islahatlar keçirməyə imkan yaradacaq.

Azərbaycanın dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlar, tərəqqi və quruculuq prosesləri öz mənbəyini, məhz Azərbaycan Respublikasının Konstitusiyasından götürüb. Əsas Qanunda təsbit edilmiş prinsip və istiqamətlər ölkəmizdə siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə davamlı inkişafın əldə olunmasına zəmin yaradıb. Azərbaycan dövləti bu gün öz tarixinin böyük tərəqqi ilə xarakterizə olunan dövrünü yaşayır, öz inkişafının keyfiyyətcə yeni və daha yüksək mərhələsinə qədəm qoyub.

Bu gün Azərbaycan qalib ölkə kimi dünyada tanınır. Vətən müharibəsi Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi. Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş bölgələrdə ucaldılıb və bu bayraq daim həmin ərazilərdə dalğalanacaq. 44 gün davam etmiş Vətən müharibəsində qazanılmış parlaq Qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra Azərbaycan Konstitusiyasının tələblər və müddəaları yerinə yetirilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Vüqar Rəhimzadə:

# “Əziz Şuşa, biz səni dirçəldəcəyik!" fikirləri artıq reallıqdır

“Tarixi Zəfərimizin birinci ildönümünü böyük sevinc və coşqu ilə qeyd edirik. Qarabağımızın tacı, Azərbaycanın döyünən ürəyi, mədəniyyət paytaxtımız Şuşanın işğaldan azad edildiyi gün çoxəsrlik tariximizə Zəfər Günü kimi həkk edilərək, əbədi qızıl hərflərlə yazıldı. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşamızın işğaldan azad edildiyi tarixdə, Zəfər Günündə mədəniyyət paytaxtımıza səfərləri bayram sevincimizi daha da artırdı, hər birimizi qürurlandırdı. 7-8 noyabr tarixlərində reallaşdırılan bu səfər çərçivəsində bir sıra obyektlərin açılışı və təməlqoyma mərasimləri keçirildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilk olaraq Füzulidə Füzuli-Şuşa, Zəfər yolunun açılışında iştirak etdilər. Bu yolun tikintisi və qısa zamanda istifadəyə verilməsi özündə bir çox məqamları ehtiva edir. Ən əsası Şuşamızın işğaldan azad edilməsinə, Vətən oğullarının qəhrəmanlığına, göstərdikləri şücaətə, ən ağır döyüş əməliyyatına şahidlik edən bu yolun əbədiləşdirilməsi xalqımızda böyük rəğbət hissi yaradır.



Arxada qalan bir il mədəniyyət paytaxtımızın həyatında çox mühüm tarixi məqamlarla əlamətdar olub. İşğalın davam etdiyi 28 il ərzində hər ilin may ayında düşmən bizim üçün müqəddəs olan Şuşanın işğal gününü bayram edirdi. Bu ilin may ayında isə son 28 ildə ilk dəfə Cıdır düzündə ”Xarıbülbül” festivalı keçirildi, qədim mədəniyyət mərkəzimizdə muğamlarımız səsləndi. Avqust ayında Şuşada daha bir tədbir - Vaqif Poeziya Günləri baş tutdu, Molla Pənah Vaqifin və digər dahi şairlərimizin şeirləri səsləndi. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşada hərbçilər qarşlısında çıxışı zamanı bu əminliyi ifadə etmişdir ki, artıq bu torpaqlarda yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bütün beynəlxalq təzyiqlərə, hədə-qorxulara rəğmən, xalqımız Ali Baş Komandanın ətrafında yumruq kimi birləşdi, ordunun arxasında dayandı və şərəfli tarixi missiyanı yerinə yetirdi. Dünyaya səs salan Zəfərimiz Ali Baş Komandanın rəhbərliyi ilə dövlətimizin qətiyyətinin, xalqımızın iradəsinin, birliyinin, ordumuzun gücünün, real həqiqətlərə, tarix faktlara əsaslanan təbliğatımızın təqdimatı oldu. Gec-tez ədalətin zəfər çalacağını bilirdik. 44 gündə 30 ilin işğalına, ədalətsizliyinə son qoyulması bunun bariz nümunəsidir”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, səfər çərçivəsində, həmçinin Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlləri qoyuldu. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış oldular. Şuşada Topxana meşəsinin bərpasına start verildi və ağacəkmə aksiyası keçirildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər. Göründüyü kimi, atılan hər addım Müzəffər Ali Baş Komandanın Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqımıza çatdırarkən söylədiyi ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!” fikirlərinin artıq reallıqda öz əksini tapdığını təsdiqləyir. Şuşanın Baş planı təqdim edilib. Hər daşı, qayası tarix olan mədəniyyət paytaxtımızın, həmçinin digər işğaldan azad edilmiş torpaqlarımızın bərpası zamanı tarixi ənənələrin qorunması, yeni, təkmil formada yenidənqurma işlərinin aparılması prioritet məsələ kimi qarşıya qoyulub. Bu gün bu torpaqlarda görülən işlər Azərbaycan xalqının qurucu, yaradıcı xalq olduğunu dünyaya nümayiş etdirir. Ermənilərin 30 ildə bu ərazilərdə törətdikləri dağıntıları bərpa etmək üçün zamana ehtiyac var. Bütün hallarda dövlət başçısı İlham Əliyev soydaşlarımızın Böyük Qayıdışının tezliklə reallığa çevrilməsi üçün zəruri olan bütün işləri görür.”

YAP Xətai rayon təşkilatının sədri Zəfər bayramının Şuşamızda qeyd edilməsinin özündə ehtiva etdiyi məqamlara diqqəti yönəldərək bildirib ki, artıq torpaqlarımız tarixi sahibindədir: ”Bundan sonra bu torpaqlarda əbədi olacağıq. Dövlət başçısı İlham Əliyev 2003-cü ildə ilk dəfə Prezident seçilən zaman Azərbaycan xalqına müraciət edərək bildirmişdi ki, nəyin bahasına olursa-olsun, tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. Əsas amal ərazi bütövlüyümüzün bərpası idi. Bu illər ərzində Azərbaycanın bütün sahələrdə qazandığı uğurlar, təcrübə göz önündədir. Ölkəmizin istənilən mövzunun müzakirəsi üçün ideal məkan kimi qəbul olunmasında düşünülmüş və məqsədyönlü siyasətin nəticəsində qazandığımız uğurlar əsas rol oynayır. Buna əmin olamaq üçün hətta İkinci Qarabağ müharibəsi dövründə də Azərbaycanın dünyanı cənginə almış koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirilməsinə, səylərin birləşdirilməsinə xidmət edən təşəbbüslərinə və onların reallığa çevrilməsinə diqqət yetirmək kifayətdir. Bu günlərdə VIII Qlobal Bakı Forumunda da dövlət başçısı İlham Əliyev diqqəti bu kimi məqamlara yönəldərək hər bir məsələnin mahiyyətində dayanan ədalət prinsipini xüsusi olaraq vurğuladı. Hər bir çıxışında artıq tarixə qovuşan keçmiş Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Prezident İlham Əliyev bu Forumda tamamilə başqa mənzərəni təqdim etdi. Dövlət başçısının qeyd etdiyi kimi, Birinci Bakı Qlobal Forumundan başlayaraq hər yeddi Forumda haqqında danışdığım mövzu Ermənistan-Azərbaycan münaqişəsi idi. Bu gün isə münaqişə həll edilib. Azərbaycan özü münaqişəni həll etdi. Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri özü yerinə yetirdi. Ölkəmiz özü ərazi bütövlüyünü bərpa etməsə idi, həmin qətnamələr növbəti 27 il ərzində də kağız üzərində qalacaqdı.”

”Artıq dünyanın ikili standartlara əsaslanan siyasəti fonunda Azərbaycanın ədalətsizliklə üzləşdiyi o illər tarixə qovuşdu” söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, Zəfərimiz yeni reallıqlar yaradıb. Bu reallıqları diktə edən tərəf Azərbaycandır: ”Hər kəs yeni reallıqları qəbul etməyə məcburdur. Bu faktın özü ölkəmizin regionda və dünyada söz sahibi olmasının göstəricisidir. Siyasətində ədalətə, beynəlxalq hüquqa önəm verən dövlət dünya birliyində layiqli yerini tutacaq, sözünün əhəmiyyətini əməli fəaliyyəti ilə təsdiqləyəcək. Azərbaycan bu gün bu modeli nümayiş etdirir.”



# Zəfər amnistiya

## dövlətin növbəti humanist siyasətinin təzahürüdür

Azərbaycan müstəqillik qazandıqdan sonra Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizi dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə və bölgədə söz sahibinə çevirib. Son 18 ildə dövlət başçısı tərəfindən həyata keçirilən dövlət proqramları, reallaşan layihələr və islahatlar Azərbaycanın inkişafına, eləcə də ölkə vətəndaşlarının rifahının yüksəlməsinə, xalqın tələbatının ödənilməsinə öz töhfəsini verib. Tarixə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində Azərbaycan Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirdi. Əlbəttə ki, dövlətimizin iqtisadi gücü, xalq-iqtidar birliyi, hərbi potensialımız, müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələrin formalaşdırılması, eləcə də vətən övladlarının vətənpərvərlik ruhunda olması Ali Baş Komandanın rəhbərliyi ilə müharibənin qələbə ilə başa çatmasında həlledici rol oynadı. Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordusu sırasında layiqli yer tutması da təsadüfi deyildi.

Azərbaycan xalqı böyük zəfər tarixini əbədiləşdirdi və yaşadı. 8 Noyabr Zəfər günü ərəfəsində dövlətimiz tərəfindən amnistiya ilə bağlı qərarın verilməsi humanist addım olaraq minlərlə insana böyük sevinc bəxş etdi. Ölkəmiz üçün mühüm əlamətdar günlərdə, bayramlar ərəfəsində amnistiyaların verilməsi çoxsaylı ailələrə sevinc bəxş edir. Azərbaycanda bu humanist ənənənin əsasını isə Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndər hakimiyyətə gəldikdən sonra əfv və amnistiya təsisatları yaradılıb. Belə ki, Milli Məclis Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüs əsasında Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiyanın elan edilməsi barədə qanun layihəsini təsdiqləyib. Vətən müharibəsində qazanılmış tarixi qələbənin birinci ildönümü ilə bağlı 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi böyük bir töhfə oldu.

Vurğulamaq yerinə düşər ki, 1995-2021-ci illər ərzində müstəqillik dövründə Azərbaycanda 67 əfv fərmanı və sərəncamı qəbul edilib. Bunların nəticəsində 9 minə yaxın məhkum azadlığa buraxılıb. Qeyd olunan dövr ərzində parlamentdə 11 amnistiya qərarı qəbul olunub. Həmin amnistiya qərarlarından sonuncuları Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyeva deputat fəaliyyəti dövründə təqdim edib. 2009, 2013, 2016-cı illərdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın irəli sürdüyü təşəbbüslər nəticəsində qəbul edilən aministiya aktları insanların sevincinə səbəb oldu. 2016-cı ilin amnistiya aktı 10.000-dən çox məhkumu əhatə etdi və 3.000-ə yaxın şəxs penitensiar müəssisələrdən buraxıldı.

Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq, əfv haqqında imzaladığı fərman və sərəncamlar minlərlə məhkumun əfv olunmasına səbəb olub. Bu gün isə Zəfər günü ilə bağlı amnistiya elan edilməsi minlərlə insana böyük sevinc yaşadacaq.

Azərbaycan Prezidenti tərəfindən təqdim olunan amnistiya sənədi ənənəvi olaraq preambula və 4 hissədən ibarətdir. Preambulada 8 noyabr 2020-ci il tarixdə Şuşa şəhərinin işğaldan azad olunmasının Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti vurğulanıb. Sənəddə amnistiya tətbiq edilən şəxslərin dairəsi, amnistiyanın tətbiqinə məhdudiyyətlər, amnistiya aktının hüquqi qüvvəsi və amnistiyanın tətbiqi qaydaları öz əksini tapıb. Bu qərar qəbul olunduğu gündən amnistiya qüvvəyə minib və əlaqədar orqanlar tərəfindən 4 ay müddətində amnistiyanın tətbiqi təmin edilməlidir. Bu qərar indiyə qədər qəbul olunmuş amnistiyalar sırasında öz əhatə dairəsinə görə ən geniş qərardır. Bu günə qədər keçirilmiş amnistiya aktlarından bu akt tamam fərqlənir. Layihədə 3 ildən artıq müddətdə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin cəzasının bu qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olduqda, çəkilməmiş cəza 6 ay azaldılacaq. Cəzaçəkmə müəssisələri, təhqiqat və ya ibtidai istintaq orqanları bu Qərar qüvvəyə mindiyi gündən 4 ay müddətində amnistiyanın tətbiqini təmin edəcəklər.

Əlbəttə ki, Zəfər Günü ərəfəsində bu amnistiyanın verilməsi Azərbaycan cəmiyyətinin insan hüquqlarına, haqqa-ədalətə inamını daha da artırmış oldu. Belə ki, təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq, Vətən müharibəsində Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslər, habelə bu müharibədə və döyüş əməliyyatlarında həlak olmuş və xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, Vətən müharibəsində Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüşlərdə iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə orden və medallarla təltif olunmuş şəxslər və digərləri müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad ediləcəklər.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Sosial şəbəkələrə nəzarət gücləndirilir:

# YENİLİK NƏ OLACAQ?

”Sosial şəbəkələrdə adətən söyüş, təhqir, şəxsiyyətin alçaldılması məsələlərinə görə insanlar nəzarət mexanizminin tətbiq edilməsini istəyir. Bu da çox zaman mümkün olmur. Daha dəqiq ifadə etsək əksər insanlar sosial şəbəkədə məruz qaldığı təhqir dolu ifadələrə görə məhkəməyə müraciət etmir. Çünki, bu kimi hallarda adətən məhkəmələr çəkişməli olur. Bu səbəbdən də insanlar uzun müddət məhkəməyə ayaq döyüb, vəkil üçün qonorar ödəmək, əlavə xərclər kimi vəsait xərcləmək istəmirlər”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq, Sağlam Cəmiyyət Hərəkatının sədri Lalə Mehralı deyib.

Onun sözlərinə görə, ümumilikdə dövlətin özünün bunun üçün nəzarət mexanizmi olmalı, bu kimi hallarda qarşı tərəfin müraciəti olmasa belə ciddi xəbərdarlıq nəzarəti həyata keçirilməlidir: ”Amma biz məhkəmə təcrübəsində rast gəlirik ki, insanlar təhqiramiz ifadəyə, şərəf və ləyaqətin alçaldılmasına görə qarşı tərəfi məhkəməyə verib və məhkəmə onun xeyrinə yekunlaşıb. Yəni, qarşı tərəf cərimə olunub, üzr istəməyə məcbur edilib, hər hansı ictimai yükü olan işlə cəzalandırılıb. Bu kimi hallar da mümkündür. Amma, biz buna tək-tük hallarda rast gəlirik. Yəni, bu cür vəziyyətlər kütləviləşməyib. İnsanlar bu vəziyyətlərdə daha çox etinasız yanaşmağa çalışırlar”.

***Ayşən Vəli***

# İnsanı cinayətə sürükləyən amillər hansılardır?



***Heç kim cinayətkar doğulmur. Dünyaya gələn uşağın gələcəkdə kim olması üçün məsuliyyəti ilk öncə ailəsi və cəmiyyət daşıyır. Arada düşünürsən, zahirən adi insan, niyə birdən ağır cinayət törədir? Bunu anlamaq çətindir. Son zamanlar müşahidə olunur ki, cinayət törədənlər arasında əqli cəhətdən sağlam şəxslər, hətta yeniyetmələr də var. Antisosial davranışın yaranmasında ailə mühüm rol oynayır. Qeyri-qanuni hərəkətlərə hansı amillər səbəb olur?***

- həddən artıq və ya davamlı olaraq ailədə cəza tətbiq etmək
- ailədə ata rolunun olmaması
- uşağa qarşı həddən artıq yumşaq davranış
- valideynlərin lazımı situasiyalarda qeyri-ciddi yanaşması
- ailədə münaqişələr və s.

Təbii ki qanunazidd davranışın yaranmasında sosial şərait də rol oynayır. Bura ilk növbədə müxtəlif sosial problemlər daxildir. Misal üçün, sosial çevrilişlər, həyat səviyyəsinin aşağı olması. Şəxsi cinayət törətməyə təkan verən yeganə səbəb olmur. Amma onu da qeyd etmək istərdim ki, hər sosial problemləri olan da cinayət törətmir. Müxtəlif növ cinayətlərin törədilməsinin psixoloji səbəblərindən biri də insanın cəmiyyətdən təcrid olunmasıdır.

Şübhəsiz ki, öncə qeyd etdiyim kimi bunun başlanğıcı ailədən irəli gəlir. Bəzən görürsən ki, tam təminatlı ailədə uşaq özünü tək, lazımsız hiss edir. Sonra gəlir bağça, məktəb. Görürsən ki, burda da ətraf ilə münasibət formalaşmır, nə dostu olur, hətta neytral ünsiyyət də alınmır və gələcəkdə uşaqda "sosiopatiya" formalaşır, bu da zaman keçdikcə qapalılıqdan açıq aqressiyaya gətirib çıxarır. Özünəgüvənsizlik, qorxular uşaq yaşlarından formalaşır.Valideynlər tərəfindən diqqətsizlik, çox ciddi cəza və ya yaşıdları tərəfindən aqressiya və s. bu fonda natamamlıq kompleksi və qorxu inkişaf edir. Gələcəkdə isə özünü təsdiq etmək üçün qanunazidd hərəkətlərə doğru addımlayırlar.

Aydın məsələdir ki, 6 yaşından tez antisosial davranış haqqında danışmaq mənasızdır. O yaşa qədər uşaq, sosial normalara uyğun davranışa nəzarət etmir. İlk dəfə uşaq məktəbdə həqiqətən sosial tələblər ilə qarşı-qarşıya durur, artıq davranış qaydalarına ciddi riayət edilir.

İbtidai siniflərdən başlayaraq antisosial davranış bu formalarda özünü büruzə verir:

- nizamsız davranış
- məktəb qaydaların və intizamın pozulması
- dərslərdə davamiyyətin pozulması
- evdən qaçmalar
- yalanlar
- oğurluq

12-17 yaşlarda qanunazidd hərəkətlər artıq ixtiyarı olur: oğurluq, xuliqanlıq. Cinayətkarın adətən cinayəti törətmək üçün müəyyən motivi olur. Bura qısqanclıq, paxıllıq, intiqam, kin aiddir. Elə şəxslər var ki, özünü ətrafdakılarla dostlarla, qohumlarla müqayisə edir. Və bu anda tamah hissi üstün gəlir. Belə situasiyalarda cinayətkar etdiyi hərəkəti ədalətin yerin tapması kimi qəbul edir və heç bir təəssüf hissi duymur. Ən çətin cinayətin səbəblərindən biri də psixi pozuntulardır. Çünki çətin sübut olunur, ətrafdakılar tərəfindən şübhə ilə yanaşılır.

Qeyri-qanuni hərəkətlərə səbəb olan anomaliyalar hansılardır:

- psixopatiya
- alkoqolizm
- nevrotik pozuntu
- kəllə-beyin travmaları
- intellektual çatışmazlıq

Cinayətin törədilməsi üçün müxtəlif səbəblər ola bilər. Hər bir halda kökündə cinayətin təməlində özünəgüvənsizlik durur. Təəssüf ki, insanlar özünü təsdiq üçün çox vaxt yanlış yol seçirlər. Unutmayaq ki, heç bir cinayət cəzasız qalmır.

**Exspert Aydın Xan Əbilov:** "XXI əsrin çox maraqlı həyat tərzi var və bu həyat tərzləri nəinki bizim adi həyat ritmimizə, eyni zamanda həmdə müxtəlif problemlərlə bağlı həyat tərzimizə də təsir edib. Bunlardan biri də cinayətkarlıqla bağlıdır. İnsan niyə cinayət işləyir? Bunun səbəbi nədir? Əvvəllər belə idi ki, bank soymaq, hər hansı bir idarəyə girib orada kassanı sökmək, oğurluq etmək asan idi, toylarda mübahisələr zamanı sonda



problem olmurdu. Əgər bu məsələlərdə birbaşa şikayət olmurdusa bunu heç kim bilə bilmirdi. Lakin, indi dünyanın hər yerində olduğu kimi Azərbaycanda da hər yerdə təhlükəsizlik kameraları və hər kəsdə də mobil telefonun kamerası var. Əgər əvvəllər maşın oğurluğu, təkər açmaq, kiminsə çantasını alıb qaçmaq, insanları öldürmək halı həddindən artıq çox idisə, indi bunlar azalıb. Cinayətin özünün fəlsəfəsi, forması, texnologiyası dəyişilib. Təsəvvür edin ki, keçmişdə cinayət ən çox siyasi məsələlərə, ictimai hadisələrə, pul qazanmağa, çox az miqdarda isə insanlara qarşı olurdu. İndi isə tam əksinə sistemləşdirilmiş, virtuallaşdırılmış, şəbəkələşmiş cinayət hadisələrini görürük. Bu da daha çox narkotik və uyuşdurucu maddələrin satışı, dini şəbəkələrə qoşularaq digər dövlətlərdə hansısa din xadiminin çağırışına uyub müharibə aparmaq, Azərbaycan qanunvericiliyinə zidd olaraq dini şəbəkələr yaratmaq və eyni zamanda fərdə qarşı yönəlik hadisələrdir. Bu da eyni zamanda yaxın insanların çevrələri tərəfindən zorlanan qız və oğlan uşaqları, hansısa bir məqsədə görə, daha çox pula görə, öz atasını, anasını, nənəsini və s. mütəşəkkil dəstə yaradaraq öldürüb, evi yandıranlar kimi cinayətlər "dəbdədir". Əlbəttə ki, bu cinayətin üstü əvvəl-axır açılır. Törədilən bütün cinayətlərin 100%-i dəqiq bilinir, yəni ən azı bir neçə kameraya düşürsən və yaxud həmin cinayəti yaxınlıqdakı insanlar görür. Lakin, bu cinayətlərin 90%-ə yaxın da açılışı vardır. Əvvəllər yadınızdadırsa, müharibə vaxtı fərarilik edənlər və yaxud müharibə zamanı satqınlıq edənlər də cinayət etmiş sayılırdı, amma bunlar son 44 günlük möhtəşəm müharibədə demək olar ki, aradan qaldırıldı və biz belə bir halla qarşılaşmadıq. İnsanı cinayətə bir neçə məsələ sürükləyir. Birincisi cinayət məsələlərinin özünün motivasiya olunması, yəni verilişlərdə, filmlərdə, sosial şəbəkələrdə cinayət aləminin adamlarının, lotuların dəbə mindirilməsi, ümumi dəb halına salınması və yeniyetmələr, gənclərin bu dəbə uyması olur. Baxın biz nə qədər səkkiz güşəli ulduzu çiyninə tato edən, sosial şəbəkələrdə bu kimi şəkilləri profilinə yayan uşaqlarla rastlaşırıq. Baxırsan burnunun suyu axır, amma vor aləmindən danışır. İkinci səbəb isə sosial məişət vəziyyətidir. Məsələn, qanun üçün iki çörək oğurlayan şəxslə, kiminsə evini oğurlayan şəxs arasında elə də böyük fərq yoxdur. Halbuki, bilirsiz ki, buna diqqət yetirmək lazımdır. Yadıma gəlir ki, bir çox mağazada yaşlı bir qadını oğurluq üstündə biyabr edən supermarket sahibi nə qədər ictimai qınağa səbəb oldu. Bunlar əslində cinayət sayılmır, xırda xuliqanlıq sayılır. Lakin, istər-istəməz qanun deyir ki, bunlar da cinayətdir. Növbəti səbəbi isə cinayətkar mütəşəkkil dəstəni göstərək. Uyuşdurucu maddə, narkotik satmaq üçün gənclərin, xüsusən də işləmək istəməyən, burjua təfəkkürlü dəstələrin yaranması və bunların törətdiyi dəhşətli cinayətdir. Məişət zorakılığı ilə bağlı cinayət faktlarına, insanların mülkiyyətinə təsir edə biləcək cinayət faktlarına tez-tez rast gəlirik. Baxırıq ki, bu kimi cinayətləri törədənlər işsiz, tənbəl, heç bir yerdə təhsil almayan, çalışmayan, lotereyada milyonlar qazanmaq istəyən gənclərdir. Bunlar kinoların, serialların, internetin təsiri ilə tezbazar, işləmədən, çalışmadan varlanmaq istəyirlər. Bu istək də gəncləri, yeniyetmələri, uşaqları cinayətə sövq edir. Ən əsası da ağır cinayət faktları ilə bağlı bizdə ağırlaşdırıcı cəza sistemi yoxdur və yaxud bu sistem çox zəif işləyir. Məhz hüquq məhkəmələrində olan rüşvətxorluq bu kimi cinayətkarların xilas olmasına səbəb olur. Cinayət hallarının bir çoxu nəqliyyat vasitələri ilə bağlıdır. Bilirsiz ki, bizdə maşınlar həddindən artıq çoxalıb, yollarımız dardı və tez-tez insanların vurulması halında olan qəzalar, içkili maşın sürmə kimi hallar da cinayət faktları arasında sayılır. Növbəti cinayətkarlıq isə virtual cinayətkarlıqdı. İnternet əməliyyatları, kartların oğurlanması, hətta nəinki adi Azərbaycan vətəndaşının, xaricdən gələn vətəndaşlarla birlikdə bu cinayət faktlarının törədilməsini biz görürük. Bu da yenə də tez pul qazanmaq kimi hərisliyin nəticəsidir. Dövlət Başçımızın humanistliyindən irəli gələrək xırda xuliqanlıq cinayət faktları törədən insanlara qarşı amnistiya, əfvetmə hallarının olması əslində insanları tərbiyələndirməlidir. Lakin, biz görürük ki, bəzi insanlar qudurğanlıq edirlər və yenidən cinayət halları törədirlər. Onların təkrar törətdiyi cinayətlərə görə çox sərt bir mübarizə forması olmalıdır. Təsəvvür edin ki, biz işləyirik və maaş alırıq, vergi ödəyirik. Bu vergi, bizə qarşı cinayət törətmiş şəxslərin həyata yenidən başlaması üçün istifadə olunur. Bəli, bu da lazımdır, amma bunun effekti çox azdır. Məsələn cinayət törətmiş şəxsi həbs edirlər, həbsdən sonra bu şəxsi buraxırlar və 700-800 manat pul verirlər ki, gedib öz işlərini qursun. Ancaq bu şəxs təkrarən bir də cinayət törədir. Bəlkə də bunun fəlsəfəsi düzgün deyil, ona görə də bu hallar həmin şəxsin təkrar cinayət işləməsi üçün motivasiya verir. O cəmiyyətdə ki intellektual səviyyə aşağıdır, təhsilə, elmə maraq azdır, mədəniyyətə, estetik və humanitar intellektual sahələri dəbə gətirilməyib, orada cinayət halları get-gedə artır. O cəmiyyətlərdə ki bu keyfiyyətlər çoxdur, yüksək səviyyəli, oturuşmuş insanlardan ibarət cəmiyyət quruculuğu var, orada cinayət halları çox az olar".

**Psixoloq Aytən Ələkbərova:** "Təbiidir ki, bunlar apardığımız metodların içərisində və bu günə qədər söhbət etmiş cinayət törədən və cinayət törətməkdə hələ də iddialı olan insanlar olubdu ki, yəni qarşımıza çı-



xan insanlardan məsəl götürək, hər hansısa bir xəyanət üçün deyir ki, "mümkün deyil gec ya da tez mən onu öldürəcəm" və biz onu yoldan necə çəkidiririk ki, bu məsələ ölümə doğru getməsin. Hətta fiziki zərərlə öldürməsə də bəzən baxırıq ki, psixoloji təsir göstərərək, yəni psixi zorakılıq edərək o insanı ölümə belə məruz qoymağa çalışan insanlardır. Araşdırmalar göstərir ki, bu, kişilərdə daha çox önə çıxıb. Eksperiment prosesində adamların davranışını psixoloji cəhətdən izah etmək çətin deyil. İzahatdan asılı olaraq onların inyeksiya, yəni sanki bir iynəni dəri altına necə yeritmək məsələsidir. Yəni münasibətin müxtəlif olduğuna görə, bu eksperiment bir epizoddur. Gəlin təsəvvür edək ki, hər hansısa bir insan, məsələn, zərurət səbəbindən uzun müddət psixotrop dərmanları qəbul edir və bu onun özünə verdiyi qiymətlərə, özünə münasibətinə, onun gerçəklik haqqındakı təsəvvürlərinə təsir göstərirmi? Baxın, cinayət də buna bənzəyir. Həmin zaman biz məsələyə ümumi şəkildə yanaşsaq burada iki halın da mümkün olduğunu görə biləcəyik. Çünki, cinayəti törədən bir şəxs, affekt vəziyyətində olduğundan bir tək cinayəti törətmir. Planlaşmış cinayətlər olur, hansı ki, bu planlaşmış cinayətin içində insan, öncədən bunun planını qurur, "bu formada təsir edəcəm, bunu edəcəm, öncə özümü daha yaxşı ona göstərəcəm" və bir də görəcəyik ki, insan artıq bu cinayəti törətdi. Biz bunları sonradan korreksiya edərkən deyirik ki, "mən bunu az çox hiss etmişdim, deyəsən burada bu məqam idi". Hətta bunu bizə cinayət törədən insanın ən yaxınları belə danışdığı bir məqam olur ki, deyirlər ki, "Aytən xanım onun o baxışındakı nifrəti, ondan zərbə gələcəyini hiss edirdim, bilirdim". Bu artıq orqanizmin fərdi xassələri sistemidir və eyni zamanda fərdi-psixi xassələr sistemidir. Bunlar psixodinamik, şəxsiyyətin psixi xassələridir, sosial-psixoloji-fərdi xassələrdir, sosial qrup və kollektivlərdə sosial rollardır. Biz bunları araşdırdıqca baxırıq ki, artıq bir insanı cinayətə sürükləyən, onun alt şüurunda yerləşən, bəzən də bilərəkdən törədilən cinayətlər uşaqlıqdan onun yaşadığı travmadan asılı olaraq həmin bir məqamda olur. Ümumiyyətlə psixoloji məsləhət və yardım xidməti bir çox ölkələrdə hələ yeni formalaşır. Bu cinayətin törəməsi də hətta Dostoyevskinin "Cinayət və cəza" əsərində də bunu rahatlıqla görmək olur. Əsəri oxuyanlar artıq bilirlər cinayətin motivi burada hansı formada gedir, hansı hüquq psixologiyasından daha düzgün istifadə olunur ki, cinayət törədən şəxsin psixoloji amillərini önə çıxara bilsin".

**Psixoloq Fərqanə Mehmanqızı:** "Burada bir çox səbəblər var ki, onlardan biri də genetik faktorlardır ki, əslində qətl törətmiş, ağır cinayət törətmiş cinayətkar və hətta oğurluğun özü belə genetik faktor kimi qeyd oluna bilər. İkinci fakor isə uşaqlıqda yaranan travma, ilk növbədə özünü eqoizmdən, ətrafa qarşı aqressiya ilə göstərə bilir. Lakin, elə cinayətkarlar da var ki, sosial cəmiyyətdə özünü doğru göstərə bilir, münasibətlərə



çox rahat girə bilir və ətraf mühit də onun cinayətkar olduğunu anlamır. Bu insanlar bədən dilindən çox yaxşı istifadə edə bilir, empatiya bacarığı ilə insanları idarə edə bilir və qurbanlarını xüsusi olaraq seçir. Elə insanlar da var ki, uşaqlıqdan elə bir travma yaşayırlar ki, onlarda ətrafa qarşı aqressiya yaranır və daxillərində əslində öz "mənlərini" tapa bilmirlər. Onlarda eşidilməmə, anlaşılmazlıq qorxusundan yaranan aqressiyalar var ki, bu aqressiyalar onları cinayətə sövq edir. Cinayət isə özü bir nəticədir, onların içlərindəki o psixopat ruhları üzə çıxarmaq üçün bir nəticədir. Burada dediyim kimi uşaqlıq travmaları, genetik faktorlar əsas rol oynayır. Bilərəkdən və bilməyərəkdən baş verən cinayətlər var. Elə hadisələr də olur ki, məsələn həmin adam cinayət edir və sonra düşünür ki, o, bu cinayəti edə bilməzdi, amma etdi. Deməli şəraitə uyğun olaraq genetik faktor özünü göstərir. Bunun müxtəlif səbəbləri var və əsas səbəb isə sevgisizlik, diqqətsizlik, qayğısızlıq və özünü assosial hiss etmədir".

*Rüqəyya Orucova*

# Müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsindən 26 il ötür

**Bu gün Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 26 ili tamam olur. Hüquqi, demokratik və dünyəvi dövlətin əsaslarını yaratmaq məqsədilə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlanmış və 1995-ci il noyabrın 12-də referendumda xalqımız tərəfindən qəbul edilmişdir.**

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin qarşısında bu müstəqilliyi qoruyub saxlamaq, dövlətçiliyimizi inkişaf etdirmək, demokratik islahatlar aparmaq kimi mühüm vəzifələr dururdu. Lakin respublikamız müstəqilliyini bərpa etsə də, ölkədə hökm sürən ictimai-siyasi qeyri-sabitlik, xaos və anarxiya yeni konstitusiyanın qəbul edilməsini mümkünsüz edirdi. Azərbaycan vətəndaş qarşıdurması astanasına sürüklənmiş, milli dövlətçiliyimiz isə məhv olmaq təhlükəsi altında idi.

Mövcud olan hüquq sistemi və qanunlar hüquqi və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Cəmiyyətin gələcək inkişafı hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılmasını tələb edirdi.

Məhz belə bir çətin məqamda, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə xalqın təkidli tələbi ilə qayıdışı müstəqil Azərbaycan dövlətçiliyinin əsasını qoydu. Ulu Öndər xalqı müstəqil Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdirməklə özünün tarixi missiyasını yerinə yetirdi və dövlətçiliyimizin tarixi səhifələrini yazdı.

Ümummilli Liderin dərin zəkası sayəsində, ilk növbədə, dövlət idarəçiliyinin bütün sahələrinin mütərəqqi standartlara uyğunlaşdırılmasına, insan hüquq və azadlıqlarının qorunması ilə bağlı davamlı demokratik islahatların həyata keçirilməsinə başlanılmışdır.

Ölkədə ictimai-siyasi sabitlik bərqərar olunandan sonra, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunçuluq və hüquq qaydası bərpa edildi. Bütün bunlar isə Azərbaycan xalqının və dövlətinin tarixində ilk milli Konstitusiyanın qəbul edilməsi üçün lazımi ictimai-siyasi şəraitin yaradılması ilə nəticələndi. Müdrik şəxsiyyətin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Yeni qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası humanizm və demokratiya prinsipləri ilə ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, dövlətçiliyimizin tərəqqisi naminə hərtərəfli zəmin yaratdı. Məhz Heydər Əliyevin gərgin əməyinin bəhrəsi olan bu böyük tarixi və hüquqi sənəd Azərbaycanın müstəqillik yolunda daha da inamla addımlamasına, milli, mənəvi dəyərlərimizin qorunması və əhalinin rifahının təmin edilməsi üçün geniş imkan yaratdı.

Konstitusiyada demokratik təsisatlar, hüquqi dövlətin atributları, hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları və onların təminatı kimi mütərəqqi müddəalar öz əksini tapmışdı. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi Konstitusiyanın demokratik dəyərlərini əks etdirir.

Bu tarixi hadisə dövlətçilik tariximizdə şanlı bir səhifə yazdı və dövlətimizin hüquqi, siyasi və iqtisadi inkişafının gələcək istiqamətlərini müəyyənləşdirdi. Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatlar ölkəmizdə siyasi, iqtisadi və hüquqi sistemin köklü dəyişdirilməsindən ibarət olmaqla, dövlət və cəmiyyətin həyatının bütün sahələrini əhatə etmişdir.

26 il öncə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası ölkə ərazisində birbaşa ali hüquqi qüvvəyə malik olan, həyatımızın bütün sahələrinə təsir göstərən canlı bir sənəddir.

Konstitusiya hüquq sisteminin təməlini təşkil edir. Hüquq sisteminin nüvəsini, bünövrəsini təşkil etməklə, konstitusiya bu sistemdən təcrid olunmuş şəkildə deyil, həmin sistem daxilində fəaliyyət göstərir. Konstitusiya hüquq sisteminin başlıca yaradıcı elementi, onun əsas hüquqi mənbəyidir.

Azərbaycan ilk milli Konstitusiyası ilə qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmişdir. Beləliklə, dövlətin və cəmiyyətin hüquqla sıx bağlılığı, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyəti orqanlarının demokratik qaydada formalaşdırılması vasitəsilə xalqın hakimiyyət funksiyalarının həyata keçirilməsində iştirakı, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, sosial ədalətə nail olması, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və s. proseslərə geniş yol açılmış, ictimai, siyasi və iqtisadi həyatın hüquqi bazası müəyyənləşdirilmişdir.

Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuşdur. İnsan hüquq və azadlıqlarına, habelə onların təminatlarına xüsusi yer ayrılır, onların təmin edilməsi isə dövlət siyasətinin həlledici istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir. Hüquqi dövlətin ayrılmaz atributu kimi insan hüquq və azadlıqlarının qorunması ölkədə həyata keçirilən hüquqi islahatların əsas istiqamətini müəyyən etmişdir.

Konstitusiya qəbul edildikdən sonra ölkəmizdə dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, beynəlxalq təcrübə və tövsiyələr nəzərə alınmaqla məhkəmə-hüquq islahatları həyata keçirilmiş, bir sıra yeni institutlar - Konstitusiya Məhkəməsi, İnsan hüquqları üzrə müvəkkil (Ombudsman), yerli özünüidarəetmə orqanları olan bələdiyyələr yaradılmış və fəaliyyətə başlamış, xüsusi mülkiyyət institutunun inkişafı və ümumiyyətlə, mülkiyyət hüquqlarının müdafiəsi ilə bağlı mükəmməl təminat sistemi formalaşmışdır.

Mahiyyət etibarilə, hüquqi islahatlar qanunların və digər normativ hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə hüquq mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirləri özündə ehtiva edir.

Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsinin, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi kimi müəyyənləşdirilməsi, dövlətin üzərinə hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat vermək vəzifəsinin qoyulması müstəsna əhəmiyyət kəsb edir.

1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası nə qədər təkmil və mütərəqqi olsa da, ötən zaman müddətində ona əlavə və dəyişikliklərin edilməsi zərurəti yaranmışdır. Konstitusiyanın stabilliyi heç də onun tamamilə dəyişilməzliyi demək deyildir, ictimai münasibətlərin inkişafı prosesi konstitusiyaların zərurət yarandıqda təkmilləşdirilməsini, onlara müəyyən əlavə və dəyişikliklərin edilməsini labüd edir. Belə ki, Konstitusiyanın qəbulu zamanı onun tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət zaman keçdikcə dəyişə bilər.



**İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır.**

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

**“Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir”.**

***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

Bu baxımdan hüququn müasir inkişaf tendensiyaları və ölkəmizin inkişaf etmiş və müasir ölkələrin ailəsinə fəal inteqrasiyası Azərbaycanda konstitusiya islahatlarının aparılmasını, Əsas Qanunun daha da təkmilləşdirilməsini zəruri etmişdi. Bu zərurətdən irəli gələrək 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlar nəticəsində Konstitusiyanın mətninə müvafiq əlavə və dəyişikliklər edilmiş, bu dəyişikliklər Azərbaycanın hüquq sisteminin inkişaf etmiş dövlətlərin hüquq sisteminə və beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, ölkəmizdə demokratikləşmə proseslərinin dərinləşməsi, insan hüquqlarının və azadlıqlarının daha səmərəli müdafiə edilməsi məqsədlərinə xidmət etmişdir.

Konstitusiyanın normalarından irəli gələrək, respublikamızda beynəlxalq hüququn norma və prinsipləri əsasında yeni normativ hüquqi baza yaradılmış, milli qanunvericiliyimiz təkmilləşdirilmiş, ölkəmiz insan hüquqları ilə bağlı çoxsaylı beynəlxalq hüquq müqavilələrinə qoşulmuşdur. Həmin hüquqların səmərəli təminatı üçün mövcud qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, beynəlxalq müqavilələrin müddəalarının milli səviyyədə implementasiyası təmin olunmuşdur.

Bütün fəaliyyəti dövründə xalqımızın və dövlətimizin maraqlarını qorumuş, Azərbaycanın hərtərəfli inkişafı uğrunda mübarizə aparmış, fədakarlıq nümayiş etdirmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, milli birliyimizin təmini, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün çalışan Əsas Qanunun müəllifi ümummilli lider Heydər Əliyev Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. O, bütün beynəlxalq tədbirlərdə Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmasını təkidlə vurğulamış, beynəlxalq ictimaiyyətin diqqətini bu problemin həllinə cəlb etməyə çalışmışdır.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayarkən andiçmə mərasimindəki tarixi çıxışında Heydər Əliyev demişdi: "İşğal, qaçqınların vəziyyəti respublikanın ictimai - siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır. Əmin ola bilərsiniz ki, mən bütün səylərimi səfərbər edib, Azərbaycan xalqının istədiyinə nail olacağam".

Ulu öndər Heydər Əliyevin işğal altındakı torpaqlarımızın azad olunması üçün göstərdiyi səylər təkcə diplomatiya ilə məhdudlaşmırdı. Ümummilli Lider danışıqların aparılması ilə yanaşı, Azərbaycan Ordusunun formalaşması və gücləndirilməsinə xüsusi diqqət yetirirdi. 1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində Azərbaycanda milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Yeni ordu quruculuğu prosesi daha sonra ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi və qısa müddət ərzində müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan qüdrətli Azərbaycan Ordusu yaradılmışdır. Bu, həmin rəşadətli ordudur ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində Qarabağda Zəfər bayrağımızı qaldırdı.

2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi.

Torpaqlarımızın işğaldan azad olunması ilə tarixə qızıl hərflərlə həkk olunmuş 44 günlük zəfər yürüşümüz alınmaz qala, mədəniyyət paytaxtımız Şuşanın noyabrın 8-də düşmən tapdağından qurtulması ilə başa çatmışdır.

Döyüş meydanında məğlubiyyətə uğrayan işğalçı Ermənistan xüsusilə dinc rayon və şəhərləri hədəfə alaraq qadağan edilmiş kasset və fosfor mərmilərindən və ballistik raketlərdən istifadə etməklə mülki əhaliyə qarşı artilleriya zərbələri endirmişdir. Hərbi əməliyyatların aparıldığı yerdən xeyli aralıda yerləşən dinc insanların yaşadığı şəhərlərimiz - Gəncə, Bərdə, Tərtər, Mingəçevir və digər şəhər və kəndlər erməni terror və təxribatlarına məruz qalmış, nəticədə uşaqlar, qadınlar, ahıllar daxil olmaqla 100-ə yaxın mülki şəxs həlak olmuş, 400-dən çox insan yaralanmış, minlərlə mülki obyektə və infrastruktura ziyan dəymişdir. Mənfur düşmənin bu çirkin əməlləri insanlarda qorxu və ruh düşkünlüyü yaratmağa yönəlsə də, xalqımız ordumuzla həmrəyliyini nümayiş etdirərək, Ali Baş Komandanın ətrafında böyük inamla sıx birləşmişdir.

Ermənilər tərəfindən törədilən cinayətlər hərbi əməliyyatlar gedən zonadan kənarda baş verdiyi, habelə hədəf olaraq mülki şəxslər və obyektlər seçildiyi üçün 1949-cu il Cenevrə Konvensiyalarının və ona əlavə Protokolların pozuntuları olmaqla müharibə cinayəti hesab edilir. Bu terror hadisələri Azərbaycan xalqının əzmi və iradəsini sındıra bilmədi, dövlətimizin iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-dövlət birliyi ölkəmizin qələbəsini təmin edən amillərdən oldu.

Bu Qələbə təkcə 44 günlük müharibənin nəticəsi deyil. Son 18 ildə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu daxili və xarici siyasət, iqtisadiyyatımızın daha da gücləndirilməsi, qazanılan beynəlxalq nüfuz, gənclərimizin vətənpərvər ruhda tərbiyəsi və milli-mənəvi dəyərlərə bağlılıq hisslərinin təbliğ edilməsi kimi mühüm addımlar böyük qələbəmizə zəmin yaratdı. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu BMT və vasitəçi dövlətlərin əvəzinə pozulmuş beynəlxalq hüquq normalarını bərpa edərək 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi.

Müzəffər Ali Baş Komandan həm də güclü, iradəli, uzaqgörən siyasətçi kimi bu Qələbəyə imza atdı. Son illər beynəlxalq informasiya məkanında ölkəmiz üstünlüyü ilə seçilmişdir. Bu sahədə üstünlüyümüzün ən mühüm amili isə Prezident İlham Əliyevin bu illər ərzində tamamilə haqlı, ölkələrin suverenliyi və ərazi bütövlüyü prinsipinə əsaslanan, beynəlxalq hüquqa söykənən bir mövqe nümayiş etdirərək ali tribunalardan çıxışları, beynəlxalq aparıcı kütləvi informasiya vasitələrinə Azərbaycan həqiqətlərini düzgün əks etdirən fikirləri oldu.

Dövlət başçısının hərbçilərlə görüşündə vurğuladığı kimi, "Bu Qələbəni qazanan əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu Qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir". Bu Qələbənin qazanılmasında Ali Baş Komandanımıza və qəhrəman hərbçilərimizə, şəhidlərimizə borcluyuq. Bu gün dövlət başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinə və qazilərə daim diqqət və qayğı ilə yanaşır və onların ailələrinə daim hər cür dəstək göstərirlər.

Müharibədən sonrakı dövrdə dövlət başçısı cənab İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və onların ailə üzvlərinə yüksək diqqət və qayğısını əsirgəmir. Ötən il dekabrın 8-də Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun yaradılması ilə bağlı Fərman imzalamışdır. "YAŞAT" Fondunun yaradılması, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə həyata keçirilən sosial dəstək və yardım aksiyaları, şəhid və qazi ailələrinə xüsusi həssaslıq və qayğı ilə yanaşılması xalqımız tərəfindən daim rəğbət və sevgi ilə qarşılanır.

Azərbaycan əsgəri əsl qəhrəmanlıq göstərərək düşmənin 30 il ərzində qurduğu nəhəng istehkamlar qısa müddətə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi döyüş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, 2003-cü ildə cənab Prezident İlham Əliyev hakimiyyətə gələndə uşaq olan insanlar Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi. Vətən müharibəsində torpaqlarımızın azad edilməsi uğrunda bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstərib, ancaq döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti 2003-cü ildə uşaq olanlardır. Bu gənc nəsil vətənpərvər ruhda yetişmiş, fədakarlıq göstərərək canlarından keçmiş və qəhrəmanlıq göstərərək tarixi ədaləti bərpa etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın rəşadətli ordusunun öz ərazi bütövlüyünü bərpa etməsi uğrunda apardığı əməliyyatların başladığı gündən qardaş Türkiyə daim öz siyasi və mənəvi dəstəyini əsirgəməmişdir. Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, Vətən müharibəsi zamanı qardaş Türkiyənin dövlət rəhbərliyi Azərbaycanın yanında olduğunu dəfələrlə açıq şəkildə bəyan etmişdir.

Bu mənəvi dəstəyin davamı olaraq cari ilin iyunun 15-də ölkəmizin mədəniyyət paytaxtı - Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan tərəfindən müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, sözsüz ki, tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu.

Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Vətən müharibəsi zamanı Türkiyə Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslan dəfələrlə əlaqə yaradaraq Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatını pisləmiş, Türkiyə Konstitusiya Məhkəməsinin kollektivi adından qardaş Azərbaycanın Vətən uğrunda şəhid olmuş əsgərlərinin, dinc əhalinin erməni işğalçıları tərəfindən qətlə yetirilməsindən kədərləndiyini bildirərək xalqımıza dərin hüznlə başsağlığı vermiş və Türkiyənin daim Azərbaycan xalqının yanında olduğunu vurğulamışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində mühüm yer tutacaq. Ölkə başçısı cənab İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımıza səfəri zamanı düşmənin darmadağın etdiyi ərazilərimizdə həyata keçiriləcək quruculuq və əsaslı tikinti işlərindən bəhs edərək məcburi köçkün kimi yurdumuzun müxtəlif yerlərində məskunlaşan soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması üçün hər cür şəraitin yaradılacağını bildirmişdir. Artıq torpaqların bərpası prosesi başlanmışdır. Prezidentin göstərişi ilə azad olunmuş bütün şəhərlərin baş planları hazırlanır, həmin ərazilərdə həyatın bərpası, müasir infrastruktur layihələrinin reallaşdırılması istiqamətində işlərə hazırlıq görülür.

Hazırda azad olunmuş ərazilərdə iri tikinti işləri aparılır. Eyni zamanda, yaşayış binalarının tikintisi layihələrinə başlanılması ilə uzun müddət işğal altında qalan torpaqlar yenidən öz sahibləri tərəfindən dirçəlməkdədir. Otuz ilə yaxın müddətdə erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimiz yenidən bərpa olunur. İşğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallığın təmin edilməsi, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələnin başlanğıcıdır.

Azərbaycan və Türkiyə prezidentlərinin ən müasir tələblərə cavab verən, qısa müddətdə və yüksək keyfiyyətdə inşa edilmiş Füzuli Beynəlxalq Hava Limanının açılışını etmələri Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Eyni zamanda, Zəngəzur dəhlizinin bir hissəsi olan böyük avtomobil yolunun təməlinin qoyulması, bir daha onu göstərir ki, bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq və bərpa işlərində də biz çiyin-çiyinə bir yerdə irəliləyirik.

Azərbaycanın əldə etdiyi inamlı Qələbə sayəsində regionda yeni reallıqlar formalaşdı. Belə ki, üçtərəfli Bəyanatda əksini tapan ən əsas məsələlərdən biri də Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən dəmir yolu və avtomobil yolunun təmin edilməsidir. Bu vacib kommunikasiya təkcə Azərbaycanın deyil, ümumilikdə Cənubi Qafqazın iqtisadi maraqlarının reallaşdırılması baxımından əhəmiyyətlidir. BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxış etmiş dövlət başçısı cənab İlham Əliyev bildirmişdir ki, sülh və əməkdaşlığa xidmət edən sahələrdən biri nəqliyyat layihələri ola bilər: "Bu kontekstdə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi regionumuz üçün yeni imkanlar yaradacaqdır".

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Kəlbəcər şəhərinə səfəri çərçivəsində dövlətimizin başçısı burada Dövlət Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışında vurğulamışdır ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılan 14 iqtisadi rayonun sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yer alması dövlət başçısının da qeyd etdiyi kimi, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar, Şərqi Zəngəzur iqtisadi rayonunda isə Şərqi Zəngəzura aid olan rayonlar birləşmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması həm strateji, həm iqtisadi, həm də tarixi baxımdan mühüm qərar, inqilabi addımdır.

***Ardı Səh. 10***

Əvvəli Səh. 9

# Müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsindən 26 il ötür

Vətən müharibəsində qazanılan inamlı Qələbədən sonra Azərbaycan beynəlxalq arenada münasibətlərini daha da möhkəmləndirməkdədir. Belə ki, Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycan qısa zamanda beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməklə böyük nüfuz qazanmışdır. Hərəkata üzv ölkələrin Azərbaycanın sədrliyinin uzadılması barədə yekdil qərar qəbul etmələri ölkəmizə olan inamın və etimadın təzahürü idi. Azərbaycanın bu quruma sədrlik müddətinin daha bir il uzadılması isə ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun artmasının göstəricisi kimi böyük əhəmiyyət kəsb edir. Bu qərarı Azərbaycanın Hərəkata uğurlu və səmərəli sədrliyinə verilən qiymət əlaməti kimi yüksək dəyərləndiririk.

Azərbaycanın beynəlxalq çərçivədə qurulan və inkişaf etdirilən münasibətləri fonunda 44 günlük Vətən müharibəsində qazanılan Qələbəsindən narahat olan ölkələr də olmaqdadır. Dövlət başçısı cənab İlham Əliyevin də bildirdiyi kimi, Azərbaycanın xarici siyasəti açıq, şəffaf, sabit və müstəqildir. Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz.

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə ümummilli lider Heydər Əliyevin bizə miras qoyduğu Konstitusiyaya əsaslanaraq həm daxili, həm xarici münasibətlərini tənzimləyir. Belə ki, Konstitusiyanın 7-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Eyni zamanda, işğal olunmuş torpaqların azad edilməsi və ərazi bütövlüyümüzün bərpası həm də soydaşlarımızın konstitusion hüquqlarının bərpasını təmin edir.

Konstitusiyamıza əsasən, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Rəşadətli Azərbaycan Ordusunun apardığı uğurlu əməliyyatlar xalqımızın əsas konstitusion hüquqlarından biri olan təhlükəsiz yaşamaq hüququnun da bərpa olunmasının əsasını qoydu.

Eyni zamanda, Azərbaycan Respublikası 30 ilə yaxın müddətdə öz suveren ərazilərinin Ermənistanın qanunsuz hərbi işğalından irəli gələn müxtəlif beynəlxalq hüquq pozuntuları ilə bağlı beynəlxalq məhkəmələrə müraciət edib. Ermənistana qarşı beynəlxalq səviyyədə hüquqi məsuliyyət tədbirlərinin həyata keçirilməsi ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan vətəndaşlarının hüquqlarının Ermənistan tərəfindən davamlı şəkildə pozulduğunu və BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edilərək BMT-nin 1965-ci il tarixli "İrqi ayrı-seçkiliyin bütün formaların ləğv edilməsi haqqında" beynəlxalq konvensiya əsasında Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı uzun müddət etnik təmizləmə siyasətinin aparılmasını sübut edən faktlar təsbit olunub.

Bildiyimiz kimi, Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların təmin olunmasını və ali ədalət mühakiməsini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin müəllifi ulu öndər Heydər Əliyev olduğu 1995-ci il Konstitusiyasının milli hüquq sistemimizə gətirdiyi mühüm yeniliklərdən biridir və Əsas Qanunun ehtiva etdiyi dəyərlərin müdafiəsinin, dövlətin hüquqa bağlılığının təmin edilməsinin mühüm vasitələrindəndir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Əsas Qanunla onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır.

Konstitusiya nəzarəti Konstitusiya ilə təsbit olunmuş norma və prinsiplərin qorunması, o cümlədən insan və vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsi məqsədini daşıyır və bütövlükdə cəmiyyətə və onun inkişafı prosesinə keyfiyyət baxımından əhəmiyyətli təsir göstərir. Başqa sözlə desək, konstitusiya nəzarəti Konstitusiyanın aliliyinin təmin edilməsi və Konstitusiyada əks olunmuş insan hüquq və azadlıqlarının təmin olunması, qanunvericilik normalarının təfsiri vasitəsilə hüququn inkişafı və hüququn tətbiqi təcrübəsinin istiqamətləndirilməsi kimi əhəmiyyətli səlahiyyətləri ehtiva edir.

Fəaliyyəti müddətində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlarda Konstitusiyanın əsasları, onun aliliyi və birbaşa qüvvəsi, respublikamızın tərəfdar çıxdığı beynəlxalq hüquq müqavilələrinin müddəaları, habelə insan hüquqlarının və azadlıqlarının prioriteti prinsipi nəzərə alınmaqla mühüm hüquqi mövqelər formalaşdırılıb.

Ötən illər ərzində Məhkəmə ümumilikdə 476 qərar və 130 qərardad qəbul etmiş və bu qərarların böyük bir hissəsi məhz insan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı olmuşdur. Konstitusiya Məhkəməsinin Plenumu qərarlarında əks etdirdiyi hüquqi mövqelər ilə milli hüquq sisteminin formalaşmasına və inkişafına töhfə verməkdədir.

Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı ilk dövrdən üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışmış, insan hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsinə imkan verən qərarları ilə ictimaiyyətin etimadını qazanmışdır.

Müasir dövrün tələblərini, ölkəmizin beynəlxalq birliyə sürətli inteqrasiyasını nəzərə alaraq, Konstitusiya Məhkəməsi də beynəlxalq hüquq əməkdaşlığına çox böyük önəm verir və bunu nəinki Konstitusiya Məhkəməsinin, ilk öncə ölkəmizin nüfuzunun və mövqelərinin möhkəmləndirilməsi mənafeyindən həyata keçirməyə çalışır. Fəaliyyətimiz dövründə Məhkəmə kifayət qədər geniş və çoxşaxəli beynəlxalq əlaqələr qura bilmişdir.

Konstitusiya Məhkəməsi yaranmasından sonra Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının, Avropa Konstitusiya Məhkəmələrinin Konfransının, habelə Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyasının və Avrasiya Konstitusiya Nəzarəti Orqanlarının Assosiasiyasının üzvü olub. Məhkəmə, həmçinin Avropa Şurasının Venesiya Komissiyası tərəfindən yaradılmış Avropa ölkələrinin konstitusiya məhkəmələri arasındakı "Venice Forum" adlanan xüsusi operativ əlaqə sistemindən istifadə edir. 2018-ci ilin martından etibarən isə Konstitusiya Məhkəməsi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin nəzdində fəaliyyət göstərən "Yüksək Məhkəmələr Şəbəkəsi"nə (SCN) daxil olmuşdur. Həmin şəbəkə Strasburq Məhkəməsinin, habelə Avropa konstitusiya məhkəmələrinin hüquqi materiallarından istifadə etməyə imkan yaradır.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təcrübəsində beynəlxalq hüquqi aktlara, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarına, habelə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinə diqqət yetirilir və istinadlar olunur.

Bunlarla yanaşı, Konstitusiya Məhkəməsi digər dövlətlərin konstitusiya nəzarəti orqanları ilə sıx əməkdaşlıq edir. Türkiyə, Rusiya, Almaniya, İsrail, Avstriya, İtaliya, Polşa, Koreya Respublikası və bir sıra digər ölkələrin konstitusiya nəzarət orqanları ilə qurduğumuz ikitərəfli əlaqələr vasitəsilə öz təcrübəmizi zənginləşdirməyə və qəbul olunan qərarlarda müasir hüquqi ideyaları tətbiq etməyə çalışırıq. Artıq bir neçə ölkənin konstitusiya nəzarəti orqanı ilə ikitərəfli əməkdaşlıq memorandumu imzalanmışdır. Bunların sırasında Türkiyə, Moldova, Monteneqro, Belarus, İndoneziya və digər dövlətlər yer almaqdadır.

Əlavə edilməlidir ki, son zamanlar bir sıra ölkələrdə konstitusiya nəzarətini həyata keçirən orqanın yaradılması zərurəti artmaqdadır. Belə ki, Qırğızıstan Konstitusiyasında baş verən islahatlar nəticəsində Qırğızıstan Respublikası Ali Məhkəməsinin Konstitusiya Palatası ləğv edilərək daha geniş səlahiyyətlərə malik olan Konstitusiya Məhkəməsi yaradılmışdır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi də öz növbəsində beynəlxalq münasibətlərə böyük önəm verərək mütəmadi olaraq digər ölkələrin qanunvericiliyində baş verən mütərəqqi addımları izləməkdədir.

Yekunda qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz fəaliyyətini daim şəffaf və ictimaiyyət üçün açıq şəkildə qurur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müasirləşdirilməsinə yönəlmiş işlərdə məhkəmə-hüquq sisteminin cəmiyyət üçün daha əlçatan olması istiqamətində mühüm addımlar atılmışdır. Konstitusiya Məhkəməsi də gənc və yeni nəsil hüquqşünasların Məhkəmənin fəaliyyəti ilə tanış olmaları və öz biliklərini konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsində tətbiq etmələri üçün daim yeni imkanlar yaradır.

Həmin prosesin davamı olaraq Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul edilmiş sorğu və müraciətləri Məhkəmənin rəsmi internet saytında yerləşdirərək hüquq sahəsində biliklərinə güvənən hər bir hüquqşünasa, o cümlədən hüquq üzrə təhsil alan tələbələrə həmin sorğu və müraciətlərə dair öz yazılı rəylərini Məhkəməyə təqdim etmək fürsəti yaradılmışdır.

Sonda qeyd etmək lazımdır ki, bu il Konstitusiyanın qəbul edilməsinin 26-cı ilində qürur və fəxrlə deyə bilirik ki, Konstitusiyanın müddəaları bütöv Azərbaycanın ərazisində ali qüvvəyə malikdir və 30 ilə yaxın müddətdən sonra vətəndaşlarımız pozulmuş hüquqlarını bərpa edərək öz yurdlarına geri dönmək prosesinə hazırlaşırlar. Böyük Qələbəni Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandan cənab İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda törədilmiş terror aktları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu Qələbəni, Zəfəri bizlərə yaşadan isə ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, siyasi iradəsi və Rəşadətli Ordumuzdur.

Əminik ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı tarixi nailiyyətlərə imza atmaqda bundan sonra da davam edəcək. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hər zaman olduğu kimi, müstəqil Azərbaycanın Əsas Qanunu olan Konstitusiyanın müddəalarının müdafiəsi, müstəqil dövlətimizin möhkəmlənməsi, qanunçuluğun qorunması istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi fəaliyyətinə dəstək olaraq, üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaq.

Fürsətdən istifadə edərək, Azərbaycan xalqını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi adından Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusunun bizə bəxş etdiyi 8 noyabr - Zəfər Günü və 9 noyabr - Dövlət Bayrağı Günü münasibətilə təbrik edir, xalqımıza xoşbəxt həyat və firavanlıq arzulayırıq. Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş bölgələrdə ucaldılıb və bu bayraq daim orada dalğalanacaqdır.

***Fərhad Abdullayev***
***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri***

## "Arşak Karapetyanın Qarabağda səfərdə olması təxribatdır"



"Son dövrlər Ermənistan rəsmilərinin Azərbaycan ərazilərinə qanunsuz gəlişi alınmırdı. Noyabrın 10-da üçtərəfli birgə Bəyanatdan sonra yəni ötən bir il ərzində bu cür olmuşdur". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.

Onun sözlərinə görə, Ermənistanın müdafiə naziri Arşak Karapetyanın noyabrın 6-dan 8-ə kimi Qarabağda səfərdə olması və Rusiya sülhməramlılarının nəzarət etdiyi zonaya gəlməsi birbaşa təxribatdır: "Arşak Karapetyanın burada Ermənistan silahlı qüvvələrinin qalıqları ilə görüşməsi və bir sıra hərbi qulluqçuları təltif etməsi müəyyən suallar doğurur. Eyni zamanda, bunun məhz Şuşanın işğaldan azad olunması, yəni 8 noyabr tarixində edilməsi tamamilə təxribatçı bir hərəkətdir və buna qarşı çox ciddi addımlar atılmalı, adekvat şəkildə cavab verilməlidir. İlk növbədə, bu məsələlər Rusiya sülhməramlıları ilə razılaşdırılmalıdır. Çünki Rusiya sülhməramlılarının kifayət qədər təsir imkanları var ki, bu tipli təxribatlar qeydə alınmasın. Eyni zamanda, Rusiya müdafiə nazirliyi və Rusiya müdafiə nazirliyinin baş qərargahı ilə təmaslar qurulmalıdır ki, bu tipli səfərlər ümumiyyətlə, baş verməsin. Çünki Azərbaycan tərəfi bu məsələlərə həssaslıqla yanaşır və bu cür səfərlər regionda gərginliyin artırılmasına xidmət etməklə yanaşı, həm də Ermənistan tərəfini daha da ruhlandırır".

İlyas Hüseynov onu da bildirdi ki, Ermənistan rəsmilərinin xüsusilə də, hərbi-siyasi rəhbərlikdə təmsil olunan şəxslərin bu tipli səfərləri qeydə alınmamalıdır: "Bu tipli səfərlər həm də regionda yeni yaranmış geosiyasi reallıqlara mənfi təsir göstərir. Belə ki, hazırda danışıqlar masası üzərində Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiyası və demarkasiyası, regionda nəqliyyat və kommunikasiya xətlərinin açılması ilə bağlı məsələlər müzakirə olunur və bu cür səfər Ermənistanın müdafiə nazirinin sülhməramlıların nəzarət etdiyi zonaya səfəri danışıqlar prosesinə də məni təsir göstərir, müəyyən təmasların qurulması ilə bağlı cəhdlərin də minimallaşdırır. Bildiyiniz kimi, baş nazirlərin müavinləri səviyyəsində işçi qrupu mütəmadi olaraq görüşlər keçirir və burada önəmli məsələlər müzakirə olunur. Lakin Ermənistanın müdafiə nazirinin səfəri tərəflər arasında etimad atmosferinin yaranmasına mənfi təsir göstərir. Bu tipli səfərlər rəsmi Bakı tərəfindən də qınanılmalı və daha kəskin və sərt addımlar atılmalıdır".

***Gülyana***

# Vətən, öz igid oğullarını heç vaxt unutmur!

## Qobustan rayonun Bəklə kəndində Abidə-Bulaq kompleksinin açılışı olub







Qobustan rayonu İcra hakimiyyətinin rəhbərliyi, YAP Qobustan rayon təşkilatının və Hüquq mühafizə orqanlarının rəhbərliyi, rayon ictimaiyyəti nümayəndələri Bəklə kəndindən şəhid olan "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuş gizir Gərayev Tural Şahin oğlu və I-Qarabağ müharibəsi Şəhidi Gərayev Kənan Valeh oğlunun məzarlarını ziyarət etmişlər Şəhidlərin məzarı önünə tər gül dəstələri düzüb, onların əziz xatirəsinə ehtiramlarını bildirib, ruhlarına dualar oxunmuşdur. Daha sonra Şəhidlərin xatirəsinə inşa olunmuş Abidə-Bulaq kompleksinin açılışı olmuşdur. Tədbirdə çıxış edənlər Şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışaraq Vətən müharibəsindəki Zəfəri ölkəmizin çoxəsrlik tarixinə yazılan şərəfli səhifə, qəhrəmanlıq salnaməsi kimi səciyyələndirib, düşmən üzərində qazanılmış böyük hərbi nailiyyətin iştirakçılarının daima sayğı və iftixarla xatırlanacağını bildirmişlər. Şəhidin yaxınları öz xatirələrini bölüşüblər,göstərilən diqqət və qayğıya görə Ölkə Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse Prezident Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlığını bildirmişdir.

***Rəfiqə***

## Ağdaş rayonunda Vətən müharibəsi qaziləri ilə görüş keçirilib

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, millət vəkili Cavid Osmanov Ağdaş rayon Heydər Əliyev Mərkəzində bir qrup Vətən müharibəsi qaziləri ilə görüş keçirib. Görüşdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.






Qazilərlə söhbət zamanı 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin düzgün qurduğu strategiya, qətiyyəti və siyasi iradəsi, qəhrəman hərbçilərimizin şücaəti hesabına ölkəmizin mənfur düşmən üzərində qələbə qazanılmasından söhbət açılıb. Bu gün qürurla qeyd etdiyimiz tarixi Qələbənin döyüş meydanında müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın mərd, cəsur, qorxmaz oğullarının sayəsində qazanıldığı, şəhidlərin canı, qazilərin qanı bahasına, xalqımızın birliyi ilə əldə edildiyi vurğulanıb. Qazilərin, şəhid ailələrinin dövlətimizin diqqət və qayğısı ilə əhatə olunduğu diqqətə çatdırılıb.

Qazilərimiz ən ağır döyüşlərin getdiyi anlarda belə əsgərlərin, şəxsi heyətin yüksək əhval-ruhiyyəsinin, döyüş əzminin qətiyyən zəifləmədiyini, ərazilərimizin düşmən tapdağından azad olunduğu günlərdə onların daha çox sevindiyini, keçirdikləri hisslərin sözlərlə ifadə edilməsinin mümkünsüzlüyünü qeyd edərək, dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirmiş, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Görüş qarşılıqlı diskussiya şəraitində davam etmiş, qaziləri narahat edən məsələlər dinlənilmiş, edilən müraciətlər müzakirə olunaraq, həlli yolları barədə fikir mübadiləsi aparılıb.

Qazilərimiz bir daha bəyan ediblər ki, onlar hər zaman ölkə Prezidenti Cənab İlham Əliyevin ətrafında birləşiblər və Müzəffər Ali Baş Komandanın hər bir əmrini canla-başla icra etməyə daima hazırdırlar.

***Zümrüd BAYRAMOVA***



## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailəsini ziyarət edib



Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 11 noyabr 2021- ci il tarixdə Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar şəhərindən olan şəhid Mirzəyev Sarvan Əli oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər. Daha sonra şəhidin məzarı ziyarət edilib və dərin ehtiramla yad edilərək məzarının üzərinə tər gül dəstələri qoyublar. Allah rəhmət eləsin!

***Rəfiqə***

## Zərdabda Vətən müharibəsi şəhidi gizir İlkin Ağayevin anım günü qeyd olunub



Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda Şanlı Ordumuzun qalib gəldiyi 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəman oğullarımızdan biri, Zərdab rayon Körpükənd sakini gizir İlkin Tehran oğlu Ağayevin anım günü qeyd olunub.

İlk öncə Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə, millət vəkili Jalə Əliyeva, Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının fəal üzvləri, rayon icra hakimiyyəti aparatının digər nümayəndələri, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, DTX-nin Zərdab rayon şöbəsinin rəisi, SHXÇDX-nin Zərdab rayon şöbəsinin rəisi, Gənclər və İdman idarəsinin rəisi və Təhsil şöbəsinin müdiri şəhidin məzarını ziyarət edib, ruhuna ehtiramlarını bildiriblər. Birinci Qarabağ döyüşlərində şəhid olmuş igid Vətən oğullarının da unudulmaz xatirəsi dərin ehtiramla yad olunub.Rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə və millət vəkili Jalə Əliyeva Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun İkinci Qarabağ müharibəsində əldə etdiyi tarixi Qələbədən danışıblar. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda İlkin kimi igidlərimizin düşmənə əsl qəhrəmanlıq dərsi keçməklə möhtəşəm Zəfər qazandığını vurğulayıblar.



Ailənin qayğı və problemləri ilə maraqlanan icra başçısı Mərdan Camalzadə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər zaman şəhid ailələri və qazilərin yanında olduqlarını bildirib.Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə canından keçən şəhid İlkin Ağayevin yaşadığı evdə ehsan verilib, şəhidin ruhuna dualar oxunub. Şəhidin ailəsi hər zaman onlara göstərilən diqqət və qayğıya görə, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən şəhid gizir Ağayev İlkin Tehran oğlu ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

***ZÜMRÜD BAYRAMOVA***

# Şuşadan eşidilən sədalar dünyaya yayılır




## Prezident İlham Əliyev: "Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir"

**Humanist dəyərləri, sülhsevər siyasəti, dinamik inkişafı, eləcə də ən çox islahatlar aparan ölkə kimi dünya miqyasında tanınan Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı Zəfərlə bir daha dünyaya öz gücünü, qüdrətini göstərdi. Haqq və ədalət uğrunda savaşmağı bacaran bir xalq olduğumuzu dünya görmüş oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin cəbhəboyu törətdiyi irimiqyaslı təxribatlara cavab olaraq 44 gün davam edən Vətən müharibəsində 30 ilə yaxın davam edən işğala son qoyuldu.**

Bu müharibənin gedişi əlbəttə ki, bütün dünyanın diqqətində idi və dünya ölkələrinin KİV nümayəndələrinə Cənab İlham Əliyevin verdiyi müsahibələrdə bu özünü aydın şəkildə göstərirdi. Dövlət başçısının böyük Sərkərdəliyi hər gün bizi qələbəyə yaxınlaşdırdı. Qısa bir tarixdə Azərbaycan Zəfər tarixini yazdı. Vətən müharibəsi bütün dünyaya Azərbaycan xalqının böyük xalq olduğunu göstərdi. 8 Noyabr Zəfər Gününü öz doğma yurdumuzda, əzəli torpağımızda Şuşada, Cıdır düzündə qeyd edən Azərbaycan bir daha dünyaya səs saldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edərkən bildirdiyi kimi, "Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir".

Artıq müharibənin bitməsindən bir il ötür. İşğaldan azad olunan ərazilərdə genişmiqyaslı abadlıq quruculuq işlərinə başlanılıb. Sürətlə həyata keçirilən layihələr əsasında artıq müəyyən qədər işlər görülmüşdür. Füzuli Beynəlxalq hava limanın açılışı, yol infrastrukturu, yeni yaşayış evlərinin tikilməsi və s. onu deməyə əsas verir ki, tezliklə keçmiş köçkünlərimiz öz doğma yurdlarına qayıdacaqlar.

Artıq Şuşadan dünyaya bir sıra mesajlar verilib. Bu il may ayında Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi və Azərbaycan muğamı dünyaya səs saldı. Uzun fasilədən sonra bu il ilk dəfə olaraq "Xarıbülbül" musiqi festivalı keçirildi. Bu festival şəhidlərimizin əziz xatirəsinə həsr olundu. "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşadan xalq ruhunu əks etdirən musiqi sədaları eşidildi. Daha sonra Vaqif Poeziya Günləri keçirildi. "Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bunu biz əldə etmişik", - deyə Azərbaycan Prezidenti bildirib.

Əlbəttə ki, Şuşada reallaşan layihələr tezliklə buranın dünyanı heyrətləndirəcək bir məkana çevriləcəyindən xəbər verir. Şuşa yeni bir qaynar dövrünü yaşayır. Azərbaycan Prezidenti İlham Əliyevin "Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncamları artıq Şuşada yeni bir həyatın başlanmasından xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın noyabrın 7-də Şuşa şəhərinə səfəri zamanı Füzuli rayonunda dövlət başçısının Zəfər yolunun açılışı etməsi reallaşan layihələrin göstəricisidir. Bu Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Əlbəttə ki, doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edəcək.

### ŞUŞA VƏ ƏTRAF ƏRAZİLƏR KEYFİYYƏTLİ RADİO-TELEVİZİYA YAYIMLARI İLƏ TƏMİN EDİLƏCƏK

Dövlət başçısının Zəfər Günü ərəfəsində Şuşada Daşaltı məscidinin təməlini qoyması dünyaya növbəti mesaj oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın noyabrın 7-də Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlini qoymaları daha bir layihənin reallaşacağını özündə ehtiva edir. Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşadan eşidilən səslər dünyanı bürüyəcək. Dövlət başçısının bu günlərdə imzaladığı "Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə ilkin olaraq 200,0 (iki yüz) min manat ayrılıb. Bu, artıq o deməkdir ki, Şuşa yenidən qurulur və dirçəlir. Xatırladaq ki, Şuşa Radio-Televiziya Yayım Stansiyası 1966-cı ildə inşa edilib. Sovet dönəmində radio-televiziya proqramları bu stansiya vasitəsilə Qarabağa və Naxçıvan Muxtar Respublikasına ötürülürdü. Şuşa işğal olunana qədər teleradio proqramlarının bu bölgələrə ötürülməsinə ermənilər hər vasitə ilə mane olurdular. 1992-ci ildə Şuşa işğal olunduğu zaman stansiyanın fəaliyyəti nəzarətdən çıxmışdı. İnşa olunacaq yeni qüllə dayanıqlı və keyfiyyətli radio-televiziya yayımının təmin edilməsinə imkan verəcək. Şuşa və ətraf ərazilər keyfiyyətli radio-televiziya yayımları ilə təmin olunacaq.

### DÖVLƏT BAŞÇISININ SƏRƏNCAMI İLƏ ŞUŞA RAYON MƏRKƏZİ XƏSTƏXANASININ TİKİNTİSİNƏ 500,0 (BEŞ YÜZ) MİN MANAT AYRILIB

Əhalinin sağlamlığı daim dövlətimizin başçısının diqqət mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibb və səhiyyə xidmətlərinin təşkili və həyata keçirilməsi üçün qısa bir müddətdə genişmiqyaslı işlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Şuşa Rayon Mərkəzi Xəstəxanası təməlqoyma mərasimində iştirak ediblər. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunmasında mühüm rol oynayacaq. Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biri olan Şuşa Rayon Mərkəzi Xəstəxanası görülən işlərin davamıdır. Dövlət başçısının "Şuşa Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamı ilə Şuşa rayonunda 90 çarpayılıq mərkəzi xəstəxananın layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılıb.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə üçrəngli Azərbaycan bayrağı dalğalanır və Zəfər tarixininə imza atmış Azərbaycan ərazilərdə böyük quruculuq-abadlıq işlərini uğurla davam etdirir.

*Zümrüd BAYRAMOVA*



## 2022-ci ilin Dövlət Büdcəsində hansı yeniliklər olacaq?

"2022-ci ilin büdcəsi Azərbaycanın müstəqillik dövründə xərclərin məbləği baxımından ən böyük büdcəsi olacaq". Bu sözləri SİA-ya açıqlamasında deputat, iqtisadçı-ekspert Vüqar Bayramov deyib. Onun sözlərinə görə, nəzərə alsaq ki, 2021-ci ildə proqnozlaşdırılan daha çox vəsaitlərin büdcəyə cəlb olunması eyni zamanda Azərbaycan iqtisadiyyatının 5 faizə yaxın böyüməsi növbəti il üçün daha nikbin proqnozların verilməsinə imkan yaratdı: "Ən vacib məqamlardan biri ondan ibarətdir ki, 2022-ci ildə büdcənin xərclərinin 46,5 faizi sosial sferaya yönələcək. Yəni bu isə ondan xəbər verir ki, 2022-ci ildə büdcədən ayrılan hər 100 manatın 46 manatından çoxu sosial istiqamətə xərclənəcək. Eyni zamanda yeni sosial paketin maliyyələşdirilməsi üçün 1,4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu da ondan xəbər verir ki, sosial maliyyələşmə, sosial istiqamətlər 2022-ci ilin dövlət büdcəsində əsas istiqamətlərdən biri kimi öz mövqeyini qoruyub saxlayacaq. Amma eyni zamanda təhsil, təhlükəsizlik və digər istiqamətlərə də daha çox vəsaitin ayrılması nəzərdə tutulur və praktiki olaraq biz bütün istiqamətlər üzrə daha çox vəsaitin ayrılmasını müşahidə edəcəyik. 2021-ci ildə artıq formalaşan qalıq da imkan verəcək ki, gələn il dövlət büdcəsinin dövlət fonduna transferlərin həcmini müəyyən qədər azaltmaq mümkün olsun. Ona görə 2022-ci ilin büdcəsi sosial büdcədir və bu müstəqillik tarixinin ən böyük büdcəsi olmaqla növbəti iqtisadiyyatın fərqli sektorlarına o cümlədən səhiyyə, təhsil və digər istiqamətlərə daha çox vəsaitin ayrılmasına imkan verəcək".

*Abutel İlhamqızı*

## II Qarabağ müharibəsi şəhidlərinin kredit borcları ödənilib




II Qarabağ müharibəsi şəhidlərinin kredit borcları ödənilib. SİA-nın xəbərinə görə, bunu parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev noyabrın 11-də Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib. Komitə sədri təklif edib ki, I Qarabağ müharibəsi şəhidlərinin də kredit borclarının silinməsi və ya onlara hər hansı bir güzəştlərin edilməsi ilə bağlı məsələyə baxılsın.

"Cəmiyyətdə düşünürlər ki, birinci Qarabağ müharibəsi şəhidlərinə fərqli münasibət var. Ancaq istər qanunvericilik, istərsə də digər məsələlər baxımından heç bir belə fərqli münasibət yoxdur" - deyə, M.Quliyev bildirib.

ANALİTİK + AKTUAL



# Qarabağa süni "erməni axını"...

*Və ya elə ermənilər var ki, onların özləri-öz yalanlarını ifşa edirlər*

**44 günlük müharibədən sonra Ermənistan resurslarını informasiya cəbhəsinə doğru yönəltdi - feyk xəbərlərin yayılması kontekstində. Hətta İrəvanın kapitulyasiya sənədinə imza atılmasından sonrakı ilk günlərdəcə Ermənistanın əsas tezislərindən biri "erməni qaçqınlarının kütləvi şəkildə Qarabağa geri dönmələri" feyki "aktual mövzu" olaraq ortaya atıldı.**

Söz yox ki, bu kimi saxta təbliğatlar, ilk növbədə, ermənilərin özlərinə hədəflənmişdi, xüsusilə, Qarabağ ermənilərinə ki, onlar müharibədən sonra unitazlarını qucaqlayaraq aradan çıxırdılar.







Lakin buna baxmayaraq, üçtərəfli bəyanatın imzalanmasının ardınca ermənilərin təbliğat maşınları çoxsaylı feykləri ilə "kütləvi qayıdış" mənzərəsini yaratmağa başladılar və bu məsələdə Rusiya sülhməramlıları da az dəstək göstərmədilər. Ancaq feyk elə feykdir və gec ya da tez bütün yalanlar üzə çıxmalıdı. Üstəlik, elə ermənilər var ki, onların özləri-öz yalanlarını ifşa edirlər. Məsələn...

## Ağdərədə nə elektrik enerjisi, nə qaz, nə də su var

Məsələn, bugünlərdə Ağdərədə avtomobili ilə hərəkətdə olan və Rusiyadan gəldiyi ehtimal edilən erməni küçələrdən keçərkən şəhərin boş və kimsəsiz olduğundan gileylənir, geri qayıtdığına görə peşan olduğunu bildirir.

Şəhərin ölü sükutu, sakinlərəsiz olması açıq-aşkar görünməkdədir. Videonu çəkən erməni senzuradan kənar ifadələri ilə emosiyalı halda təəccüb edir ki, bütün yol boyunca yalnız bir-iki adamla rastlaşıb. Bütün bunlarla yanaşı, Ağdərədə nə elektrik enerjisi, nə qaz, nə də su var.

Praktiki olaraq bütün evlər yarıdağılmış və atılmışdır. Ümumiyyətlə, həmin kadrlara baxarkən gözlər önündə sanki qiyamət günündən sonrakı mənzərə canlanır. Lap Hollivud ulduzu Frensis Lourensin "Mən əfsanəyəm" dramatik filmində olduğu kimi. Bütün bunlardan sonra "Qarabağda sıx şəkildə yerləşmiş erməni əhalisi" deyərkən, bu ifadəyə, sadəcə, istehza etmək qalır.

## RSK-nin nəzarəti altındakı bölgələrdə ən uzağı 25 min erməni yaşayır

Beləliklə, Ağdərədəki kadrlardan sonra feyklərinin ifşasını anlayan Ermənistan hökumətinin rəsmiləri dərhal zəncirdən qırılmış köpəklər kimi quduzlaşmağa başladılar, hətta həmin kadrları yayan ermənini "türklərə işləməkdə" (?!) ittiham etdilər. Hələ bu da son deyil. Ermənistanın əmək və sosial məsələlər




naziri Narek Mkrtçyan dərhal brifinq keçirərək Qarabağda guya yüz mindən çox insanın yaşadığını həyasızcasına bəyan etdi. Kifayət qədər bəlli olur ki, İrəvan hazırda münasibətləri pozulmuş diasporanı və dünya ictimaiyyətini inandırmağa çalışır ki, guya ermənilər öz gələcəklərini Qarabağda görürlər və ona görə də "kütləvi şəkildə geriyə dönürlər", üstəlik, orada müharibəyə qədərki sayda ermənilər yaşayırlar. Hələ bu harasıdır? Hətta elələri də tapılır ki, onların iddialarına görə və sən demə Qarabağda müharibədən əvvəlkindən də çox ermənilər yaşayırmış...

Ancaq həqiqət nəyi göstərir? Misal üçün, Azərbaycan tərəfinin əlində olan və obyektiv nəzarət mexanizmlərindən əldə edilən məlumatara görə bugünkü gündə RSK-nin nəzarəti altındakı bölgələrdə ən uzağı 25 min erməni yaşayır və onların əsas hissəsi, yəni 20 min nəfəri Xankəndidə məskunlaşıblar. Yerdə qalan 5 min nəfər isə ətraf yaşayış məntəqələrinə səpələniblər. Kimlər bacarıblarsa, onlar Ermənistana keçərək oradan da xarici ölkələrə köçüblər. Təbii ki, belə olan vəziyyətdə "ermənilərin Qarabağa kütləvi axını" iddialarından ümumiyyətlə, danışmağa dəyməz. Bunun şahidi olmaq üçün isə təkcə Ağdərə ilə bağlı videoya baxmaq kifayət edir.

***Rövşən RƏSULOV***



Elçin Bayramlı

# Buna nə ad vermək olar?

**Bu günlərdə Ədliyyə Nazirliyi yeni doğulan uşaqlara verilməsinə cəhd edilən birabırçı adların yeni siyahısını açıqlayıb. Siyahıya baxanda şükr edirsən ki, nə yaxşı dövlət bu sahədə birabırçılığın qarşısını almaq üçün uşaqlara belə adların qoyulmasına imkan vermir. Əlbəttə, uşağa adın verilməsi hər bir valideynin öz haqqı və hüququdur. Lakin burada nəzərə alınması vacib olan bəzi məqamlar var ki, bu yazıda onlara toxunmaq istəyirəm.**

Əvvəla, qeyd etməliyik ki, adlar milli mədəniyyətin əsas elementlərindən biri olmaqla yanaşı, həm də milli identifikasiya komponentidir. Hər xalqın adları onun öz ana dilində, yaxşı mənası və səslənişi olan sözlərdən seçilməlidir.

Hər hansı bir xalqda eyni adların kütləvi qoyulması o xalqın yaradıcılıq və təfəkkür səviyyəsinin lazimi həddə olmadığını göstərir. Zəngin mədəniyyətə, qədim tarixə malik xalqlarda belə hallar olmur və olmamalıdır. Məsələn, yaponlarda 100 mindən yuxarı ad var. Azərbaycan ərəblər tərəfindən işğal olunduqdan sonra, ərəb adları milli adları sıxışdırmağa başladı, sonralar hakimiyyətdə olan farsların təsiri ilə fars adları da buna qoşuldu.

Sovet dövründə ərəb, fars adları azaldı, milli adlar üstünlük təşkil etməyə başladı. Burada əhalinin savadlanması ilə yanaşı, ədəbiyyatın, teatrın, kinonun, aparılan təbliğatın da böyük rolu oldu. Çoxlu yeni milli adlar yarandı ki, bu sətirlərin müəllifinin adı da bura daxildir. Düzdür, az az hallarda uşaqlara siyasi, iqtisadi terminlər və ya texnika adları qoyulurdu ki, bu da çox nadir hallarda qeydə alınırdı.

Son vaxtlar açıqlanan adqoyma siyahılarında həm gülməli adlara çox rast gəlinir, həm də dini adlara. Gülməli adların qoyulmasını valideynin psixi problemləri ilə rahatca izah etmək mümkündür. İndiki geniş yayılmış dini adlara gəldikdə isə, təbii ki, burada əsas faktor mövhumatdır. İnsanlar düşünür ki müqəddəs şəxslərin adlarını uşaqlarına qoysalar onun üçün yaxşı olacaq. Lakin düşünmürlər ki, həyatda hər kəs hər şeyi öz zəhməti, biliyi, ağlı ilə qazanır, adının necə olması ilə yox.

Müqəddəs şəxslərin adını qoymaqla uşağın taleyi vaideynin istədiyi kimi formalaşmır. Məhəmməd, Əli, Yusif, Hüseyn, Fatma, Zəhra, Xədicə... adları qoyulmuş bəzi şəxslər böyüyüb cinayətkar, əxlaqsız adam olurlar. Bəs onda harda qaldı bu adların təsiri?

Demək, valideyn uşağa övliya şəxslərin adını verməkdənsə, ona tərbiyə, təhsil və sağlamlıq versə yaxşı olar. Ona görə də, ərəb adlarının yerinə öz milli adlarımızı qoymalıyıq. Üstəlik, bu adlar islamla bağlı da deyil, islamdan qabaqkı dövrdəki ərəb və yəhudi adlarıdır. Tanrı insana adına görə yox, əməllərinə görə qiymət verir, elə insanlar da. Bəzi valideynlər bunu anlasalar yaxşı olar.

Əgər bir sinifdə 10 oğlan uşağı varsa və 7-sinin adı Məhəmməddirsə, və ya 10 qız varsa və 7-nin adı Zəhradırsa, bu, problemdir. Azərbaycan və Türkiyədə bəzi filmlərdə buna işarə edilib və etiraz bildirib. Məsələn, "Əhməd haradadır" və "Çalışquşu" filmlərini misal göstərmək kifayətdir.

Digər bir təsir seriallarla bağlıdır. Belə ki, bizim evdar qadınlar bütün günü bu seriallara baxır, serial qəhrəmanlarının təsiri ilə yaşayır və uşaqlarına onların adlarının qoyulmasını təkid edirlər. Halbuki ,bu adın nə mənası, nə də kökü aydın deyil. Bəzi hallarda isə pis mənası var. Ad dəblə yox, milliliyi və müsbət mənası ilə seçilməlidir.

Başqa bir problem müasir gənclərin bizim qədim adlarımızı köhnəlmiş hesab etmələridir. Guya ki köhnə ad pis imiş, mütləq yeni qondarma, ya da süni dəbə minmiş, mənası naməlum ad qoyulmalıymış. Bu, axmaq yanaşmadır. Əvvəla, köhnə adlar özündə mənəvi-psixoloji mahiyyət, genetik informasiya daşıyır, dövrlər, nəsillərarası əlaqəni qırılmağa qoymur.

İkincisi kim və necə müəyyən edir ki, köhnə adlar pisdir, yeni adlar yaxşıdır? Tək bir hərflə- S ilə başlayan köhnə qız adlarına baxaq- Sona, Süsən, Sənəm, Selcan, Səma, Sevda, Sevinc, Seyran... Sizin hansı müasir adlarınız bunlardan daha mənalıdır, daha gözəldir? Demək köhnə adlar problem deyil, problem sizin beyninizdədir.

Yeni də olanda yenə öz ana dilimizdə olan sözlərdən yaransa, dərd yarıdır. Lakin belə deyil. Xalqımızın tarixində heç vaxt qoyulmayan və işlənməyən sözlərdən ibarət adlar qoyulur uşaqlara. Belə getsə yaxın gələcəkdə yeni nəsillərlə köhnə nəsillərin adları tamam fərqli olacaqsanki eyni millətdən deyilik. Nəsillərarası tarixi əlaqə kəsiləcək. Bir millətin assimilyasiya olması üçün bu da kifayət edər.

Ola bilsin valideyn psixi xəstədir, bu o demək deyil ki, övladına, misal üçün, Sərxoş adı qoya bilər və uşaq ömür boyu lağ hədəfi olmalıdır. Bu psixotravmanı uşağına vurmağa valideynin heç bir ixtiyarı yoxdur. Adlara yanaşmada diqqət verilməsi vacib olan nüanslar var. Elə adlar var ki, insanlar onu lağa qoyur, lakin o Azərbaycanda yaşayan hansısa bir xalqın dilində normal sözdür, normal mənası var, sadəcə, bizə tələffüzü qəribə gəlir, ya da eşitmədiyimiz addır. Bu doğru deyil.

Bizim xalqın zəngin mədəniyyəti, zəngin dili var. O qədər qədim adlarımız var ki onlar unudulub gedir. Ya da bəzi yeni adları öz sözlərimizdən yaratmaq olar. Yetər ki, sağlam düşüncə və istək olsun. Deyəsən elə çatışmayan da budur.

SİYASİ RAKURS+AKTUAL

# Kremlin məqsədi nədir?

## Yaxud, oyuncaq İrəvan Bakıya "təzyiq" vasitəsi ola bilərmi?




Son vaxtlar, xüsusilə növbəti üçtərəfli görüşün baş tutması ətrafında aparılan müzakirələr ərəfəsində Ermənistanın yenidən yaxasını kənara çəkməsi bir daha bəzi detallar ətrafında düşünməyə vadar etdi. Fakt budur ki, 2020-ci ilin noyabrında Azərbaycan Rusiya və Ermənistan arasında üçtərəfli bəyanat imzalandı və bu bəyanat bilavasitə İrəvanın Bakı qarşısındakı kapitulyasiyasının məntiqi sonluğu olaraq tarixə yazıldı. Həmçinin, üçtərəfli görüşün bəlli müddəaları, bəndləri ictimaiyyətin diqqətinə çatdırıldı, prosesin başlanıldığı barədə bəyanatlar səsləndirildi. Qanunsuz erməni silahlılarının Qarabağ regionundan çıxarılmasından tutmuş kommunikasiyaların və nəqliyyat dəhlizlərinin blokadadan çıxarılmasına qədər bütün məsələlər razılaşdırıldı, eləcə də növbəti vaxtlarda da bu kimi görüşlərin istər işçi qrupları səviyyəsində, istərsə də bilavasitə ölkə rəhbərlərinin iştirakları ilə keçirilməsi barədə müəyyən razılıqlar əldə olundu.

### Bu qüvvənin Kreml olması istisna edilməməlidir

Bütün bunlardan sonra İrəvanın, yumşaq desək, cığallıqlarından əl çəkməməsi, məğlubiyyəti ilə barışmaması, zaman-zaman revanşçılıq dili ilə danışmaq cəhdləri isə ilk növbədə daim vədinə, sözünə və imzasına sadiq qalan Bakının səbrini tükəndirməyə başladıb. Qarabağda və Ermənistanla sərhəd zolaqlarında törədilən təxribatlar isə səbrin tükənməsinə olan bariz sübutdur. Əbəs deyil ki, Prezident İlham Əliyev bütün çıxışlarında "Dəmir yumruğun" yerinə olduğunu xatırladır və əgər həmin xatırlatma varsa, deməli ki, hər an, hər şey dəyişə bilər. Ancaq rəsmi Bakı hələ ki, xəbərdarlıq bəyanatları ilə kifayətlənir, mövcud vəziyyətin nəzarətdən çıxmaması istiqamətində maksimum hövsələ, səbr, təmkin nümayiş etdirir.

Fəqət təəssüf ki, İrəvan Bakı tərəfindən ona yaradılan çoxsaylı jestlərdən nəticə çıxarmır və digər yandan Ermənistan rəhbərliyinin yaxasını kənara çəkməsi arxasında müəyyən güclərin dayanması ehtimalları artmağa başlayır. Bu qüvvənin isə Kreml olması istisna edilməməlidir.

### Bakı RSK-nın mandatını əvvəldən təsdiq etməyibsə



Artan ehtimallar isə budur ki, son günlər baş verən erməni təxribatları (Şuşada Rusiya sülhməramlıları kontingentinə (RSK) "su çəkən fəhlələrin" təxribat planlarının qarşısının alınması, Kəlbəcərdə fəaliyyət göstərən mühəndislərə və texnikalara atəşin açılması, Qaragöl gölündəki son olay və s.-R.R.) Kremlin göstərişləri sayəsində baş verir. Misal üçün, haqlı olaraq RSK-nin mandatını təsdiq etməyən Azərbaycana qarşı oyuncaq İrəvan "təzyiq" vasitəsi qismində yenidən ortaya atılır. Bakı RSK-nın mandatını əvvəldən təsdiq etməyibsə, bu prosesin sonrakı müddətlərdə də davam edəcəyini bəri başdan proqnozlaşdırmaq mümkündür. Prezident İlham Əliyevin qətiyyətli diplomatiyası və siyasi iradəsi heç vaxt imkan verə bilməz ki, başqa ölkəyə məxsus silahlı qüvvələr (hətta sülhməramlılıq missiyası olsa belə - R.R.) ölkəmizin ərazisindəki fəaliyyətini rəsmiləşdirsin. Əbəs deyil ki, noyabr bəyanatında buna aid bənd mövcuddur və Azərbaycan RSK-nın fəaliyyətinə xitam verməsi üçün altı ay əvvəldən bu barədə qarşı tərəfi məlumatlandırmalıdır.



Biz onu da unutmamalıyıq ki, zamanında Qəbələdəki Rusiyaya məxsus RLS-nin də fəaliyyətinə xitam verən məhz Bakı olmuşdu və bunu təkbaşına həyata keçirmişdi. Yəni həmin proses istənilən zaman təkrarlana bilər. Təbii ki, Moskva da bunu yaxşı bilir və Bakının tək olmadığını çox yaxşı anlayır.

### Bakı ilə Ankaranın Şuşa Bəyannaməsini imzalaması Moskvanı qıcıqlandırır

Bu gün isə Bakının yanında Ankara kimi regional güc faktoru, strateji və hərbi müttəfiqi dayanıb. Qarabağ kimi müharibədən çıxmış həssas bölgədə Bakı ilə Ankaranın Şuşa Bəyannaməsini imzalaması isə söz yox ki, Moskvanı qıcıqlandırır və bunun belə olacağını həm Bakı, həm də Ankara çox gözəl bilirdi. Ancaq siyasi iradə və qətiyyətli qərarların verilməsi istənilən hədləri aşmağa kifayət qədər şərait yaradır - İkinci Qarabağ müharibəsinin başlanması və qələbə ilə bitməsi buna birmənalı sübutdur. O cümlədən, Moskvanın öz maraqlarını təmin etməsi üçün hansı siyasi gedişlər edəcəyi şahmat oyununda olduğu kimi, bir neçə gedişdən əvvəlki mümkün ehtimallarla təxmin edilir.

Bəli, bu gün bir çoxları haqlı olaraq düşünürlər ki, sarsıdıcı və rüsvayçı məğlubiyyətə uğramış ölkə heç vaxt qalibin qarşısında şərtlər irəli sürə bilməz. Kreml isə əvvəlki Qarabağ problemi ilə Azərbaycanı təsiri altında saxlamağa çalışırdı. Bu baxımdan, Bakının qətiyyətli mövqeyi və birbaşa Ərdoğanın siyasi dəstəyi, eləcə də Azərbaycan-Türkiyə birliyi bu stereotipləri kökündən məhv etdi.

### Gorus-Qafan yolundakı proses Laçın dəhlizində də reallaşdırıla bilər

İndi Kreml digər yollarla yenidən nəzarəti ələ keçirməyə çalışır. Bu proseslər isə onu göstərir ki, əgər imzalanan üçtərəfli bəyanatdakı bəndlər icra olunmazsa, Azərbaycan öz hüququndan istifadə edib Laçın dəhlizinin statusunun ləğv edib orada da sərhəd və gömrük blokpostları quracaq, necə ki, Gorus-Qafan yolunda həmin prosesin başlanılması istiqamətində rəsmi qərar verildi.



Daha bir məsələ ondadır ki, rəsmi Bakı Kremlin verdiyi sözünə 100% əməl edəcəyinə inanmamasında haqlı nəticə çıxarıb. Yuxarıda mandatın rəsmiləşdirilməməsi haqqında edilən qeydlərin də məhz bu amilə söykəndiyini bir daha xatırlatmaq yerinə düşərdi. Nə qədər ki, qanunsuz erməni silahlıları Qarabağda qalmaqda davam edirlərsə, nə qədər ki, Laçın dəhlizi vasitəsi ilə RSK-nın nəzarəti altındakı bölgələrə Ermənistanın güc nazirləri, rəsmi şəxsləri səfərlər edirlərsə, nə qədər ki, həmin yerlərdə hərbi səfərbərliklər həyata keçirilirsə, "təmas xətləri" haqqında bəhs edilirsə, Bakı son ana qədər dirənişini göstərəcək - ta o zamana qədər ki, bütün bəndlərə riayət olunsun. Əks halda nəyin-necə olacağını, hətta siyasəti dərindən bilməyənlər də çox gözəl təsəvvür edə bilərlər.



***Rövşən RƏSULOV***

***P.S. Əgər zirzəmi siçovulu Araik Arutyunyan Moskvada səfərinin ardınca "Artsaxın müdafiə ordusu təmas xəttində bir çox uğurlu işlər görür" ifadəsini səsləndirirsə, onun bu ifadəsinin də məhz Kremlin sözü olduğunu unutmamalıyıq. Bu zaman haqlı sual meydana çıxır: üçtərəfli bəyanatın bəndlərinə əməl olunmursa, biz niyə həmin bəndlərə əməl etməliyik? Niyə hər şey bir tərəfli olmalıdır? Məgər Bakının bir ildə göstərdiyi jestləri qarşı tərəfə bəs etmirmi?***

# RUS EKSPERT: "QARABAĞDAKI ERMƏNİ QULDUR DƏSTƏLƏRİ XƏRÇƏNG ŞİŞİDİR, ONU ÇIXARMAQ LAZIMDIR..."



...əks halda bu şiş terror aktları, təxribat şəklində metastaz verəcək"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafi Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Sülh razılaşmasından keçən 1 ildə Qarabağda və 2 ölkə arasındakı münasibətlərdə gərginlik davam edir. Müxtəlif xarici ekspertlər bölgədə sülhün təminatı üçün problemlər olduğunu və bu problemlərin məhz Ermənistandan qaynaqlandığını deyirlər. Rusiyanın nüfuzlu hərbi eksperti, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Caliber" analitik mərkəzinə müsahibəsində 2-ci Qarabağ Müharibəsi və ondan sonrakı sülh dövründə bölgədə yaranmış vəziyyətlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Azərbaycanın bu qədər qısa zamanda itirilmiş ərazilərini geri qaytara bilməsi dünya ictimaiyyətini niyə təəccübləndirdi? Bu skeptisizmin səbəbi nədir?***

- İlk növbədə, belə reaksiya Azərbaycan Silahlı Qüvvələrinin mövcud potensialının kəşfiyyat tərəfindən düzgün qiymətləndirilməməsi ilə bağlı idi. Bu, o deməkdir ki, Azərbaycan əks-kəşfiyyatı xarici dövlətlərə Azərbaycan Silahlı Qüvvələrinin imkan və potensialını aydın qiymətləndirməyə imkan verəcək kritik məlumatların sızmasının qarşısını almaq üçün kifayət qədər səmərəli işləyib. Hesab edirəm ki, bu, Azərbaycanın daxili təhlükəsizliyə cavabdeh olan xüsusi xidmət orqanlarının uğurlu fəaliyyətidir.

İkincisi, Ermənistan ordusunun çox effektli və istənilən müharibədə Azərbaycana müqavimət göstərməyə, Azərbaycan ordusunun irəliləməsinin qarşısını almağa qadir olduğu barədə fikir var idi. Və nəhayət, dünya ictimaiyyətinin ümumi skeptisizmi ondan ibarətdir ki, Qarabağ məsələsi 30 ildir həll olunmamış qalıb, ona görə də 30 il daha həll olunmayacaq. Hər kəs öyrəşməyə başladı ki, bura de-yure Azərbaycan ərazisi olsa da, de-fakto ermənilər heç vaxt oranı tərk etməyəcək və Azərbaycan ordusu onları sıxışdırıb çıxara bilməyəcək.

Əslində, bütün bu amillər elə bir vəziyyətə gətirib çıxardı ki, əks-hücum əməliyyatı başlayandan sonra kənar müşahidəçilərin, ekspertlərin, siyasətçilərin, beynəlxalq liderlərin, demək olar ki, böyük əksəriyyətində sabit təəssürat yarandı ki, 5-7 gün keçəcək və Azərbaycanın hücumu boğulacaqdı, sülh danışıqları aparılacaqdı və əslində heç nə dəyişməyəcək, ən yaxşı halda, Azərbaycan hansısa kiçik ərazini azad edə bilər. Hamı 2016-cı il aprel döyüşlərinin təkrarlanacağını düşünürdü. Çoxlarının əhvalı belə idi. Erməni ordusunda keçilməz "Ohanyanın xətti" haqqında belə bir mif var idi ki, Azərbaycanın hücumu kəsiləcək.

***- Ermənistan müxalifətinin hakimiyyəti ələ keçirməsi ehtimalı varmı və bu, üçtərəfli bəyanatın nəticələrinə təsir etmək iqtidarındadırmı?***

- Məncə, Paşinyan dözəcək. Əgər o, bir il əvvəl tab gətirə bilibsə. Düzdür, o ,









Ermənistan Müdafiə Nazirliyinin binasının bunkerində və Ermənistanın o zamankı iyerarxiyasında 3-cü şəxs olan Ararat Mirzoyanın kortejində gizlənirdi, parlamentin spikeri saxlanılıb, özü də döyülmüşdü. Prinsipcə, Paşinyanı da eyni aqibət gözləyirdi, o, kütlənin əlinə düşsəydi, sadəcə, parça-parça olardı, amma gizlənməyi bacardı. Sonra o, seçkilərdə qalib gəldi və buna görə də inanıram ki, Koçaryanın tərəfdarlarının mitinqi heç bir uğur gətirməyəcək, çünki kritik idarələr- Müdafiə Nazirliyi və Milli Təhlükəsizlik Xidməti Paşinyanın tərəfindədir. Ona görə də onun dözəcəyinə inanıram.

Koçaryanın hakimiyyətə gəldiyi belə bir ssenarini etiraf etsək belə, o, heç nə edə bilməyəcək, çünki İkinci Qarabağ müharibəsinin nəticəsi təkcə Ermənistanın məğlubiyyəti deyildi: onun hərbi dişləri qoparılıb, bu gün gücsüzdür, Azərbaycana qarşı hər hansı təcavüzkar hərəkət isə təcavüzkar üçün mümkün faciəli nəticəyə gətirib çıxaracaq. Bu baxımdan Ermənistanın istər təkbaşına, istərsə də kənar oyunçuların köməyi ilə indiki vəziyyəti dəyişmək şansı qətiyyən yoxdur- yeni geosiyasi reallıq gəlib çatıb və Ermənistanın hesablaşmaq istəməsi və ya istəməməsi ondan asılı deyil. Ya onu məcbur edəcəklər, ya da ona fikir verməyəcəklər, əslində o, artıq vəziyyəti dəyişə bilməyəcək.

***- Vladimir Putinin mətbuat katibi üç liderin onlayn görüşə hazır olduğunu təsdiqləsə də, Paşinyan onun bəyanatını kəskin şəkildə təkzib etməyə tələsdi. Sizcə, bu dəyişkən davranışın səbəbi nədir?***

- Dmitri Peskov dedi ki, görüş planlaşdırılır, bu, Kremlin rəsmi ruporudur. Biz ondan irəli gəlirik ki, Moskva uzaq formatda olsa belə bu cür bir sammit keçirməyə hazırdır, lakin Paşinyan bu barədə heç nə bilmədiyini söylədi. Ola bilsin ki, o, bugünkü mitinq ərəfəsində şəxsən ona qarşı hücuma keçmək üçün rəqiblərinə siyasi kozır verməmək üçün belə bəyanat verib. Ola bilsin ki, görüş bir neçə gün sonra baş tutsun. Hər halda belə bir görüşün keçirilməsi zəruridir, çünki əslində, üçtərəfli bəyanat icra olunmur, ilk növbədə, Ermənistanın mövqeyinə görə. O, nə bu sərhədin delimitasiyası, nə demarkasiyası, nə sülh müqaviləsi, nə də regionda nəqliyyat kommunikasiyalarının açılmasını istəyir. O, qəti şəkildə Zəngəzur nəqliyyat dəhlizinin əleyhinədir, baxmayaraq ki, əgər Laçın dəhlizi varsa, eyni rejimli Zəngəzur dəhlizi də tam olaraq eyni olmalıdır, lakin Ermənistan bu barədə eşitmək istəmir, erməni üslubunda bu cür manevrlər gedir- bir şey deyilir və başqa bir şey edilir. İrəvanın təbliğat ritorikası, isterikası, qeyri-konstruktiv davranışı hərəkətə gətirildi. Hər şey necə bitəcək, demək çətindir, mən şəxsən hesab edirəm ki, Rusiya Ermənistanın da bu işdə iştirak etməsini istəyirsə, ona iqtisadi təzyiq tədbirlərindən istifadə etməlidir.

***- Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasına və iki qonşu xalqın harmoniyada yaşamasına hansı şərtlər kömək etməlidir?***

- Biz Ermənistanın Azərbaycanla münasibətləri yaxşılaşdırmaq ritorikasından belə istəyini görmürük. Azərbaycan və Türkiyə açıqdırlar və mehriban qonşuluq mesajları verirlər, özlərini düzgün aparır, müharibənin bitdiyindən, sülhün əlamətdar mərhələsindən, normal insani münasibətlərin qurulmasından, iqtisadi əlaqələrin inkişafından, mehriban qonşuluq əlaqələrinin qurulmasından danışırlar. Prezident Əliyev Ermənistan sakinlərini Azərbaycanın tamhüquqlu vətəndaşları hesab etdiyini, onlara bütün Azərbaycan vətəndaşlarının istifadə etdiyi hüquq və azadlıqlarının təmin olunduğunu bildirib. İrəvan tərəfdən Bakı və Ankaranın müsbət siqnallarına cavab yoxdur, sadəcə isteriya və hələ də revanşist mövqelər davam edir.

Verdiyiniz sual ritorikdir, məncə ona cavab vermək mümkün deyil. Hesab edirəm ki, Azərbaycan öz siyasətini Ermənistanın özünü necə aparmasından asılı olmayaraq, istənilən halda yeni siyasi reallığın gəldiyi, dövlətin ərazi bütövlüyünün bərpa edildiyi, işğaldan azad edilmiş ərazilərdə dağıdılmış ərazilərin bərpası ilə bağlı siyasətini əsas götürərək qurmalıdır. Ümumiyyətlə, Azərbaycana bir şey lazımdır: Ermənistanla sülh müqaviləsi və Zəngəzur nəqliyyat dəhlizi, vəssalam. Problem budur ki, erməni elitası bunu istəmir və bu nə qədər davam edəcək, burada proqnozlar çox fərqli ola bilər. Hesab edirəm ki, regionda sülh prosesinə alternativ yoxdur, rəsmi Kremlin mövqeyi dəqiq müəyyən edilib: nəqliyyat dəhlizlərinin açılması və buna uyğun olaraq mehriban qonşuluq, normal münasibətlər, üstəlik Moskva "3+3" formatını dəstəklədi. Bu gün əsas sabitliyi pozan amil Qarabağ bölgəsində erməni quldur dəstələrinin olmasıdır, onlar oradan çıxarılmalıdır, bu xərçəng şişinə bənzəyir, onu çıxarmaq lazımdır, əks halda bu şiş terror aktları, təxribat şəklində metastaz verəcək, biz bunu bu gün görürük.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
12 noyabr
2021-ci il

# Qara istiot COVID-19-u bloklayır?



Qara istiotda olan piperin COVID-19-un yayılmasına mane ola bilər. Rusiya Elmlər Akademiyasının (REA) Sitologiya İnstitutunun və Paster adına Sankt-Peterburq Epidemiologiya və Mikrobiologiya Elmi Tədqiqat İnstitutunun alimləri belə qənaətə gəliblər. Araşdırmanın nəticələri "Biomedicines" jurnalında dərc olunub. Elmi tədqiqatlardan birinin baş rəhbəri olan, Rusiya Elmlər Akademiyası Sitologiya İnstitutunun baş elmi işçisi Olqa Ostroumova araşdırmanın təfərrüatı barədə məlumat verib.

Mütəxəssisin izah etdiyi kimi, infeksiya törədicilərinin bağlandığı insan hüceyrəsinin səthindəki zülalları bloklayan preparatların yaradılması koronavirusla mübarizənin istiqamətlərindən biridir. Ancaq ştammlar və onların zülalları sürətlə mutasiyaya uğrayır. Bu da bir çox hazırlanmış dərmanların zamanla öz təsirini itirməsinə səbəb olur.

Buna görə də Rusiya alimləri başqa yolla getmək və zülalları qarşılıqlı əlaqəsini deyil, insan və virus hüceyrələrinin lipid örtüyünün (membran) birləşməsinə maneə törətməyə qadir olan maddələri tapmaq qərarına gəliblər. Əgər belə birləşmə baş verməsə, infeksiya da olmayacaq. Alimlər müxtəlif tibbi məqsədlər üçün uzun müddət bioaktiv əlavələrin tərkibində istifadə olunan, bitki mənşəli alkaloid olan piperinə diqqət yetiriblər.

Ostroumova qeyd edib ki, elmi təcrübə üçün piperindən əlavə, 20 müxtəlif alkaloid də seçilib. Koronavirus infeksiyası zülal fraqmentinin iştirakı ilə virus və hüceyrə membranlarının modellərinin sınağında ən yüksək effektivliyi məhz piperin göstərib. Sınaq koronavirusun Uhan ştammı və meymun hüceyrələrində aparılıb.

# Ronaldo PSJ-yə keçir?



PSJ "Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldonu heyətinə qatmaq istəyir. Qol.az xəbrə verir ki, Paris təmsilçisi 36 yaşlı hücumçu ilə danışıq aparmağa hazırdır. Hətta keçidi müzakirə etmək üçün Ronaldonun meneceri ilə əlaqə də saxlayıblar. Qeyd edək ki, Ronaldo avqustun 31-i "qırmızı şeytanlar"la 2+1 illik müqavilə imzalayıb.

## Model qısa boyu və əyriliyinə görə rədd edilib



**ABŞ-lı model Heyli Biber "Viktoria's Sekret" alt paltarı brendinin yeni üzü olub. SİA xarici mətbuata istinadən xəbər verir ki, bir neçə il əvvələ qədər o, brendin yeni üz skrininqlərindən keçə bilməyib. Qısa boyu və əyriliyinə görə rədd edilib. Ancaq "Me Too" markasının qadın hərəkatının yaratdığı zəlzələdən sonra Hailey üçün qapılar açılıb.**

*Ayşən Vəli*

## "Nar" Qarabağ müharibəsi iştirakçılarına dəstək istiqamətində sosial layihələrini davam etdirir




"Nar" "Yaşa, Vətən" kommunikasiyasının davamı olaraq, Qarabağ müharibəsi iştirakçılarına dəstək məqsədli sosial layihələrini davam etdirir. Belə ki, mobil operator "Gələcəyini Qur!" layihəsi ilə əməkdaşlıq çərçivəsində Qarabağ müharibəsi veteranları və hərbçi ailələrindən 10 məktəblinin universitet hazırlığı xərclərinin ödənilməsini öz üzərinə götürüb. Məqsəd gənclər üçün təhsil imkanlarını daha da əlçatan edərək onların uğurlu gələcəyinə töhfə verməkdir. "Gələcəyini Qur!" Gəncliyə Dəstək yüksək bilik və bacarığa malik olan 11-ci sinif şagirdlərini müəyyən edərək, onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. 2014-cü ildən Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin sponsorluğu ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən təhsil alma həvəsi və potensialı olan gəncləri ali təhsilə yiyələnməkdə dəstəkləmək, onları cəmiyyətin tamhüquqlu, məsul, bilikli və bacarıqlı vətəndaşları olaraq inkişaf etməsinə kömək etməkdir.

Xatırladaq ki, bundan öncə də "Nar" şəhid ailələrindən olan tələbələrə dəstək olmaq üçün NDU ilə birgə təqaüd proqramına start vermişdi. "Nar"ın digər sosial layihələri və KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

## Diqqət: Bu amillər uşaqlarda immuniteti möhkəmləndirir



**İmmun sistemi insan sağlamlığında çox mühüm rol oynayır və onun formalaşması ana bətnindən başlayır. İmmunitet körpə hələ doğulmamışdan ana bətnində əmələ gəlir və sonrakı yaşlarda uşaqları qoruyur. Ananın hamiləlik dövründə keçirdiyi stress və yediyi qidalar uşaqlarda immunitetin formalaşmasına təsir edir.**

Bakıdakı 20 nömrəli uşaq poliklinikasının həkim-pediatrı Hafizə Məmmədova AZƏRTAC-a deyib: "Yeni doğulmuş körpə üçün ana südünün əhəmiyyəti əvəzolunmazdır. Körpəni ən azı ilk altı ay ərzində yalnız ana südü ilə yedizdirən analar əmin ola bilər ki, uşaq sağlam böyüyəcək. Uşaqların qidalanması, keçirdiyi infeksion xəstəliklər, fiziki vəziyyəti immun sisteminə təsir göstərən əsas faktorlardan biridir. Məsələn, hətta eyni ailədə böyüyən əkiz uşaqların immun sistemləri müxtəlif olur. Bağçaya gedən, toplumla tanış olan körpələr tez-tez xəstələnir. Bu zaman valideynlər uşaqları bağçadan çıxarmaq qərarına gəlir. Bu, onların atdığı ən böyük yanlış addımdır, çünki uşaq bağçada olmasa da, məktəbə gedəndə də həmin problemlə üzləşir".

Müsahibimizin dediyinə görə, immun sisteminin güclənməsində yuxu rejimi də mühüm rol oynayır: "Uşaq orqanizmi üçün lazım olan bəzi maddələr körpə yuxuda ikən sintez olunur. Məsələn, melanin maddəsi uşaq orqanizminin möhkəmlənməsində, boy artımında və immun sisteminin formalaşmasında böyük rol oynayır. Yuxu rejimi uşaqların yaşına uyğun seçilir: 0-3 aylıq körpələr gündə 14 saatdan 17 saata qədər, 4 aydan 1 yaşa qədər uşaqlar 12-16 saat, 1 yaşdan 2 yaşa qədər uşaqlar 11-14 saat, 3 yaşdan 5 yaşa qədər uşaqlar 10-13 saat, 6-12 yaş arası uşaqlar 9-12 saat, 13-18 yaşlı yeniyetmələr isə 8 saatdan 10 saata qədər yatmalıdırlar. Yuxusuzluq orqanizmin sitokin adlandırılan zülal hazırlaması qabiliyyətini məhdudlaşdırır. Sitokinlər infeksiya ilə mübarizə aparır və iltihabı azaldırlar".

Həkim-pediatr immunitetin qorunması üçün bir sıra məsləhətlər də verib: "Yaxşı olar ki, valideynlər uşaqları mövsümə uyğun geyindirsinlər. Mütəmadi olaraq körpə uşaq olan evdə otaqların havası dəyişilməlidir. Hətta yağışlı havada da uşağı həyətə düşürmək və hər bir hava rejiminə uyğunlaşdırmaq lazımdır. Uşaqlara hazır qidalar verməkdən çəkinmək lazımdır. Evdə onlar üçün qida hazırlayarkən təbii bitki yağlarından, eləcə də zeytun yağından istifadə etmək lazımdır.

Daha bir vacib məsələ vaxtlı-vaxtında peyvəndlərin vurulmasıdır. İmmunizasiya körpə vaxtlarından başlayır və yetkinlik yaşına qədər davam edir. Bu zaman qızılca, epidemik parotit, suçiçəyi, rotavirus və digər infeksiyaların qarşısı alınır. Hər il mütləq qripə qarşı da peyvənd vurulmalıdır. Bu, astma və digər xroniki xəstəlikləri olan uşaqlar üçün xüsusilə vacibdir".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**